Bu bir xalq qəzetidi

ƏDALƏT

## Rəsmi Bakı Abxaziyadakı qondarma seçkinin nəticələrini tanımır



**Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) Gürcüstanın suverenliyini və ərazi bütövlüyünü dəstəklədiyini bir daha təsdiqləyir.**

Adalet.az xəbər verir ki, bu barədə Azərbaycan XİN-in bəyanatında deyilir.

Qeyd olunub ki, Azərbaycan XİN 12 mart 2022-ci il tarixində Gürcüstanın Abxaziya bölgəsində keçirilmiş qondarma parlament seçkilərini, həmçinin onların nəticələrini tanımır.

"Azərbaycan Xarici İşlər Nazirliyi Abxaziya məsələsinin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq sülh yolu ilə həlli üçün danışıqların davam etdirilməsinin vacib olduğunu hesab edir".

## Zelenskidən xəbərdarlıq



**Ukrayna Prezidenti Volodimir Zelenski beynəlxalq ictimaiyyətə müraciət edib. Adalet.az xəbər verir ki, o, Qərb dövlətlərindən Ukraynanın hava məkanını bağlamağı tələb edib.**

"Əgər NATO Ukrayna səmasını bağlamasa, Rusiya raketləri Alyans ölkələrinin vətəndaşlarının evlərinə də düşəcək. Beynəlxalq Sülhməramlı və Təhlükəsizlik Mərkəzinin atəşə tutulması nəticəsində 35 nəfər həlak olub, daha 134 nəfər yaralanıb. NATO sərhədləri oradan cəmi 20 km məsafədədir", - V.Zelenski bildirib. O, keçən il NATO-ya etdiyi xəbərdarlığı xatırladıb: "Biz demişdik ki, NATO sərt addımlar atmasa, Rusiya müharibəyə başlayacaq. Biz haqlı idik. İndi isə deyirəm ki, Ukrayna hava məkanını bağlamasanız, raketlər NATO ölkələrini hədəf alacaq. Bu, an məsələsidir". Dövlət başçısı Ukraynanın ölkə tarixinin ən ağır sınağından keçdiyini və qələbəyə inandığını vurğulayıb: "Nümayəndə heyətimizin konkret vəzifəsi var- prezidentlər səviyyəsində görüşün baş tutmasını təmin etmək".



**Bu gün Azərbaycanın pasportu Anarın doğum günüdür. Bu münasibətlə onu ürəkdən təbrik edirik!**

## Naxçıvan gömrükçüləri 100 kq-a yaxın heroin aşkarladı

**Naxçıvan gömrükçüləri tərəfindən daha bir fakt üzrə narkotik qaçaqmalçılığı cəhdinin qarşısı alınıb.**

Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsindən Adalet.az-a verilən məlumata görə, MR ərazisindən tranzit keçməklə Bolqarıstan Respublikasına PVC xammalı yükü aparan, İran İslam Respublikası vətəndaşının idarə etdiyi 63AA195/63AA196 dövlət nömrə nişanlı "Scania" markalı nəqliyyat vasitəsinə Culfa dövlət sərhədindən buraxılış məntəqəsində rentgen qurğusu vasitəsilə baxış keçirilən zaman nəqliyyat vasitəsinin yanacaq çənində şübhəli təsvirlər müəyyən edilib. Yoxlama zamanı nəqliyyat vasitəsinin sürücü tərəfində olan yanacaq çənində süni olaraq hazırlanmış, aşkarlanması xüsusilə çətinləşdirilmiş üçhissəli gizli saxlanc yerindən, ümumilikdə 113 bağlamada xalis çəkisi 97 kiloqram 800 qram olan narkotik vasitə - heroin aşkar edilib. Faktla bağlı Naxçıvan MR Dövlət Gömrük Komitəsinin İstintaq bölməsi tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 206-cı maddəsinə (Qaçaqmalçılıq) uyğun olaraq cinayət işi açılıb.



*Əbülfət MƏDƏTOĞLU*

## Sözün işığında görünən dünya

Bax: səh.3

## NATO-nun NÖVBƏTİ HƏDƏFİ ÇİNDİR




**İki qardaş milləti bir-birinə qırdıran NATO Ukraynada istədiyinə nail olacaq. Düzdür, Rusiya Ukraynada qələbə qazansa da, Ukrayna onun üçün ikinci Əfqanıstana çevriləcək. Necə ki, Rusiya Əfqanıstandan biabırcasına çıxdı, bu Ukraynada da baş verəcək. Ukraynalılar onsuz da hələ II Dünya savaşında partizan hərəkatına öyrəşmişdilər. Bu müharibədə də Rusiyanı elə məhv edəcəklər.**

Bir tərəfdən də Rusiyanı sanksiyalar öldürür. Rusiya sanksiyalara müəyyən müddətə davam gətirəcək. Sonrası isə Allaha və Putinə qalır.

ABŞ-ın və NATO-nun ikinci planı Çindir. Orda uyğurları ayağa qaldıracaq, necə ki çoxdan ayağa qaldırıb və Çinə qarşı müharibəyə başlayacaq, sonra da uyğurların müdafiəsini özünün prioritet vəzifəsinə çevirəcək. Bununla da Çində vətəndaş müharibəsi başlayacaq və ölkənin iqtisadi gücü zəifləyəcək, daha doğrusu, sönəcək.

Arada qırılan biz uyğurlar olacağıq.

ABŞ-ın nə vecinə qırılan uyğurdur, yoxsa ilan-qurbağa yeyən Çin.

Və təbii ki, Türkiyə və türk dövlətləri uyğurların qırılmasına razı olmayacaq. Və Türkiyəni Ukraynada müharibəyə soxa bilməyən NATO Çindəki davaya soxacaq.

Sonda. Ağdamda belə bir məsəl var. Deməli, Mişanı (Mehralı) döyüblər. Qonşular nənəsindən soruşur ki, Mişanı nə üstə döyüblər?

Nənəsi deyir:

***- Söhbət qız üstə olub, qız da Mişanı deyib, ona görə də Mişanı aradan götürmək istəyiblər.***

İndi növbəti söhbət uyğurlar olacaq, ona görə də həm Uyğurustanı, həm də Çini aradan götürmək istəyəcəklər. Allah qoymasın...



**Astara rayon İcra Hakimiyyəti başçısının maaşını hələ ki, Qəzənfər müəllim alır, halal xoşu olsun.**

Bu bir xalq qəzetidi

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 11 (5948) 15 mart 2022-ci il | Qiyməti 30 qəpik

# 5 baza prinsipi açıqlandı




Bax:səh-2

## "Azərbaycan Rusiya-Ukrayna görüşünə ev sahibliyi etməyə hazırdır"



**"Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ukraynada müharibənin dayandırılması istiqamətində səy göstərirlər. Xüsusilə qardaş Türkiyə tərəfindən Antalya Diplomatiya Forumunda da Rusiya və Ukrayna xarici işlər nazirlərinin görüşünün keçirilməsi çox müsbət addım və sülhün yaradılmasına böyük töhfə idi. Biz də bunu təqdir edirik, beynəlxalq ictimaiyyət də bunu yüksək qiymətləndirir".**

Adalet.az xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev söyləyib.

"Azərbaycana da Ukrayna tərəfindən belə bir təklif olunmuşdu. Amma belə bir niyyət olarsa, biz hər zaman buna ev sahibliyi etməyə hazırıq. Azərbaycan əvvəllər ABŞ və Rusiya arasında yüksək səviyyəli şəxslərin görüşünə, həmçinin NATO-Rusiya danışıqlarına ev sahibliyi edib. Burada da məntiq ondan ibarətdir ki, Azərbaycan nə NATO, nə də KTMT üzvüdür.

Azərbaycan Qoşulmama Hərəkatının sədridir. Bu xüsusda düşünürük ki, tərəflərin hər biri özünü rahat hiss edə bilir".

## QARDAŞ, ÇAYI KEÇƏK, DÜŞMƏNÇİLİYİ SONRA EDƏRİK





**Deməli, "Xan Lənkəran"ın birinci divizyonda oynaması mübahisə altındadır və yəqin ki də oynamayacaq. Buna səbəb də onu göstərirlər ki, əslində "Xan Lənkəran"ın sponsoru Mübariz Mənsimovdur.**

Mübariz Mənsimovla da AFFA-nın prezidenti Rövnəq Abdullayev arasında münaqişələr var, ona görə də istəmirlər ki, cənub bölgəsinin bu sevimli komandası nəinki yüksək liqada, hətta birinci liqada iştirak eləsin.

Bu isə Azərbaycan futbolu üçün acınacaqlı bir vəziyyətdir. "Xəzər-Lənkəran"ın uğurlarından xəbəriniz var. Eyni zamanda bu cənub bölgəsinin ən sevimli komandası idi və onun oyunlarına gələn tamaşaçıların sayı Bakı çempionatındakı komandaların matçına gələnlərin hamısının sayından dəfələrlə çox idi, özü də söhbət bir matçdan gedir.

"Xəzər-Lənkəran" region komandası idi və hamımızın sevimlisi idi. İndi bu komandanı "Xan Lənkəran" əvəz edir. Və baxıram "Xan Lənkəran"ın oyununa, özü də bir oyununa, yuxarıda dediyim kimi, heç Bakı çempionatının bütün oyunlarına gələnlərdən çox azarkeş yığışıb.

Rövnəq Abdullayevlə Mübariz Mənsimov arasında nə üstdəsə dava düşə bilər, amma bunun Azərbaycan futboluna aidiyyatı olmamalıdır. Davanızı məhkəmədə həll edin, futbolda yox.

Bir məşhur məsəl var. Çayı keçirlər, birinin yükü ağırdı, onu sevməyən bir adamla çayı keçir.

Yükü ağır olan deyir:

***- Qardaş, gəl bu çayı keçək, davamızı sonra edərik.***

**İndi Rövnəq Abdullayev və Mübariz Mənsimov, Azərbaycan futbolunun xətrinə çayı keçin, davanızı sonra edərsiniz.**

*Tural Bakuvi*

## Ermənistanın dəhlizə bizdən daha çox ehtiyacı var

Bax: səh.2

## NƏRMİNİN ÖLDÜRÜLMƏSİ İLƏ BAĞLI MƏHKƏMƏ NƏ VAXT SONA YETƏCƏK?



**Bu cinayət hadisəsini ölkədə hətta azyaşlılar da bilir. Uzun müddətdir istintaq öz işini qurtarıb verib məhkəməyə, amma məhkəmədə də bu iş uzanır.**

Adicə bir ölüm işinin bu qədər uzadılması həm istintaq orqanlarına, həm də məhkəməyə başucalığı gətirmir. Bu da təbii ki, həm istintaq orqanlarına, həm də məhkəməyə ictimaiyyətin inamını sarsıdır.

Bu Kennedinin ölüm işi deyil ki, hələ də bu günədək açılmamış qalsın, adi bir uşağın qətlə yetirilməsidir.

## Səlahəddin Xəlildən günün statusu



***14 mart 1979 - Albert Eynşteynin 100 illiyi münasibətilə ADPU/APİ-nin akt zalında məruzəm yadıma düşdü.***

***O vaxt belə bir narazılıq duydum: APİ-də bu qədər adlı-sanlı professorlar dura-dura məruzəni niyə 27 yaşlı bir gəncə tapşırıblar?***

***Mən də dedim ki, Eynşteyn Nisbilik nəzəriyyəsini kəşf edəndə 26 yaşı var idi. Nobel mükafatına layiq görülən Fotoeffekt təlimini isə 25 yaşında yaradıb. Belə çıxır ki, Azərbaycanda olsa, siz onu heç namizədlik müdafiəsinə də buraxmazdınız ki, hələ çox gəncdir.***

## Ukraynada 19 gündə 90 uşaq ölüb



**Ukraynada Rusiyanın genişmiqyaslı hərbi əməliyyatları başlayandan bəri 90 uşaq ölüb.**

Adalet.az xəbər verir ki, bu barədə Ukrayna prokurorluğu məlumat yayıb. Bundan başqa 100-dən çox uşaq yaralanıb.

Ölənlərin əksəriyyəti Kiyev, Xarkov, Donetsk, Çerniqov, Sumı, Xerson, Nikolayev və Jitomir vilayətlərindəndir.

"Dünən Nikolayevin atəşə tutulması nəticəsində iki uşaq ölüb, daha ikisi yaralanıb. Onlar mülki infrastruktura atəş açıblar", - deyə prokurorluq vurğulayıb.

Bundan əlavə, bombardman və top atəşləri nəticəsində 380-ə yaxın təhsil müəssisəsi zərər görüb. Onlardan 59-u tamamilə məhv edilib. Ən çox dağıntılar Donetsk bölgəsindədir. Orada 119 təhsil müəssisəsinə ziyan dəyib.

## LUKAŞENKO İCTİMAİYYƏTİ QOYUN YERİNƏ QOYUR



**Deyir ki, atam İkinci Dünya Müharibəsində həlak olub, özü isə 1954-cü ilin 30 avqustunda doğulub.**

Lukaşenkonun atası Vikipediyaya görə, "naməlum əsgərdir", ona görə də anasının familiyasını daşıyır.

## GƏRƏK YERƏ YIXIB AĞZINA-AĞZINA TƏPİKLƏ DÖYƏK...

**Deməli, sosial şəbəkələrdə artıq Xankəndində də oturmuşuq, Xocavənddə də, Xocalıda da, hətta həmin ərazilərdən fotolar da paylaşırlar.**

Müdafiə Nazirliyi yalvarır, Respublika Baş Prokurorluğu belə yazılar paylaşanlara ultimatum verir, Prokurorluğa çağırır, xəbərdarlıqlar edir, cəzalar tətbiq edir, amma xeyiri yoxdu.

Müdafiə Nazirliyi yazılanları təkzib edir, yenə xeyiri yoxdu. İnsanları da qınamıram, öz arzularını bu şəkildə təqdim edirlər.

İnşallah, Xankəndində də, Xocalıda da, Ağdərədə də Azərbaycan bayrağı qaldırılacaq. Amma tələsməyin, belə feyk xəbərləri paylaşmayın. Bu həm əhalini həyəcanlandırır, həm də bizim terrorizmə qarşı mübarizəmizə kölgə salır.

Nə qalıb ki...

## Oxucuların nəzərinə

**"Ədalət" qəzetini həftədə 3 dəfə - 2, 4, 6-cı günlər oxuya bilərsiniz.**

**Aqil ABBAS**
**aqilabbas@rambler.ru**

## MÜDAFİƏ NAZİRLİYİNDƏ PAMBIQ YIĞIMI



*İndiki gənclər bilməz, şükürlər ki, müstəqil olandan sonra day orta məktəb şagirdlərini pambıq yığımına aparmırlar. Şagirdlər bütün güclərini oxumağa, təhsilə verirlər. Ona görə son 30 ildə yusifməmmədəliyevlərin, xuduməmmədovların, arifbabayevlərin (söhbət xanəndə Arif Babayevdən getmir), rafiqəliyevlərin, fərəməzmaqsudovların, əhlimanəmiraslanovların, cəlalallahverdiyevlərin, mirəliqaşqayların və sair və ilaxır sayı o qədər artıb ki, adam sevinməyə bilməz.*

Bax: səh.2

## Obama koronavirusa yoluxub



**ABŞ-ın keçmiş prezidenti Barak Obama koronavirusa yoluxub.**

Adalet.az-ın məlumatına görə, bu barədə keçmiş prezident özünün "Twitter" səhifəsində yazıb.

"İndicə COVİD testinin müsbət nəticəsini aldım. Bir neçə gündür boğazım ağrıyır, özümü yaxşı hiss edirəm", - deyə B.Obama bildirib. Onun sözlərinə görə, həyat yoldaşı Mişel Obamanın COVİD testinin nəticəsində mənfi çıxıb.

## GÜNÜN LƏTİFƏSİ

**Kəndlərin birində 32 yaşlı müəllimənin 18 yaşlı şagirdə qoşulub qaçması xəbərini eşidən məktəb direktoru növbədən kənar iclas keçirir.**

40-50 yaşlı müəllimələrə:

**- Məndən xəbərsiz bir addım da atmırsınız, bundan sonra sizi məktəbə qardaşlarınız aparıb gətirəcək!**

Yaşlı müəllimələrdən biri:

**- Müdir, mənim qardaşım 10 ildi rəhmətə gedib.**

Müdir:

**- Kəs səsini, sən indidən qaçmağa bəhanə axtarırsan!**

# Prezident sərəncam imzaladı



**Prezident İlham Əliyev Xurşidbanu Natəvanın 190 illiyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.**

2022-ci ildə Azərbaycan bədii fikrinin görkəmli siması Xurşidbanu Natəvanın anadan olmasının 190 ili tamam olur.

Qarabağ xanlığının sonuncu varisi Xan qızı Natəvan mənbəyini doğma təbiətin gözəlliklərindən alan ədəbi yaradıcılığını xalqa məhəbbət nümunəsinə çevrilən xeyriyyəçilik fəaliyyəti ilə ahəngdar şəkildə uzlaşdırmış, yaşadığı Şuşa şəhərinin abadlığı və mədəni həyatının canlılığı üçün böyük zəhmət sərf etmiş, humanist təbiətinə və nəcibliyinə görə tanınıb fədakarlıq və mərhəmət mücəssəməsi kimi sevilmişdir. Xurşidbanu Natəvan Azərbaycan ədəbiyyatı tarixində diqqətəlayiq yer tutan söz ustalarındandır. İncəsənətin ayrı-ayrı növlərinə dərindən bələd olan sənətkar Şərq poetik ənənələrinə sədaqətlə yazıb yaratmış, mənəvi saflığa çağıran və insana məhəbbət, həqiqətə inam hissi aşılayan, zərif lirizmə malik və parlaq bədii boyalarla zəngin bir irs qoyub getmişdir. Onun başçılıq etdiyi ədəbi məclis öz ətrafında dövrün qabaqcıl ziyalılarını toplamış və Qarabağ ədəbi mühitinin inkişafına güclü təsir göstərmişdir.

Xurşidbanu Natəvanın yaradıcılığı həmişə diqqət mərkəzində saxlanılmış, xatirəsinin əbədiləşdirilməsi istiqamətində ölkəmizdə bir sıra tədbirlər həyata keçirilmiş, o cümlədən 1960-cı ildə Bakıda şairənin heykəli, 1982-ci ildə Ulu Öndər Heydər Əliyevin iştirakı ilə Şuşada büstü ucaldılmışdır. Ermənistan silahlı qüvvələrinin 1992-ci ildə Şuşanı işğal edərək buradakı tarixi-memarlıq və mədəniyyət abidələrini vandalcasına dağıdarkən güllə ilə zədələdikləri həmin büst 44 günlük Vətən müharibəsində şəhər şanlı Azərbaycan Ordusu tərəfindən azad olunduqdan sonra əzəli məkanına qaytarılmışdır. Bu gün Natəvanın Şuşada yenidən ucalan və möhtəşəm Zəfərimizin təntənəsini nümayiş etdirən büstü, eyni zamanda, xalqımızın milli mədəni irsə qayğısının rəmzi və mənəvi dəyərlərə ehtiramının təzahürüdür.

Sərəncamda qeyd edilir ki, görkəmli şairə və xeyriyyəçi Xurşidbanu Natəvanın 190 illiyinin qeyd olunmasını təmin etmək məqsədilə Mədəniyyət Nazirliyi, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, Xurşidbanu Natəvanın 190 illiyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

**Nazirlər Kabinetinə bu Sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılır.**

## *5 baza prinsipi açıqlandı*

**Ermənistanla sülh müqaviləsi imzalamağa hazır olmağımıza dair ən yüksək səviyyədə edilən bəyanatlara baxmayaraq, ötən müddət ərzində Ermənistan tərəfindən buna qarşılığın verilmədiyi qeyd edilib.**

Adalet.az xəbər verir ki, Xarici İşlər Nazirliyinin (XİN) mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva KİV-in ”Azərbaycan tərəfi iki dövlət arasında münasibətlərin normallaşmasına dair Ermənistan tərəfinə baza prinsiplərini təqdim etdikdən sonra, Ermənistan tərəfi sülh danışıqları ilə bağlı Minsk Qrupunun həmsədrlərinə müraciət etdiyini bildirib. Ermənistanı müəyyən addımlar atmağa vadar edən, bu baza prinsipləri barədə daha ətraflı məlumat əldə etmək olarmı?” sualını cavablandırarkən belə deyib.

Onun sözlərinə görə, Xarici işlər naziri Ceyhun Bayramov Antalya Diplomatiya Forumunda çıxışı zamanı Azərbaycanın münaqişə sonrası mərhələdə sülh quruculuğu səylərindən bəhs edib.

Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində ölkəmiz tərəfindən atılan addımlara, Ermənistanla sülh müqaviləsi imzalamağa hazır olmağımıza dair ən yüksək səviyyədə edilən bəyanatlara baxmayaraq, ötən müddət ərzində Ermənistan tərəfindən buna qarşılığın verilmədiyi qeyd edilib.

Məlumat verildiyi kimi, növbəti addım qismində Azərbaycanın bir neçə gün öncə, iki dövlət arasında münasibətlərin yaradılması üçün baza prinsiplərinə dair təklifi vasitəçilər tərəfindən Ermənistana təqdim edilib. Burada iki dövlət arasında münasibətlərin normallaşması üçün aşağıdakı beş baza prinsipləri əks olunub:

- Dövlətlərin bir-birlərinin suverenliyi, ərazi bütövlüyü, beynəlxalq sərhədlərinin toxunulmazlığı və siyasi müstəqilliyini qarşılıqlı şəkildə tanıması;
- Dövlətlərin bir-birlərinə qarşı ərazi iddialarının olmamasının qarşılıqlı təsdiqi və gələcəkdə belə bir iddianın qaldırılmayacağına dair hüquqi öhdəliyin götürülməsi;
- Dövlətlərarası münasibətlərdə bir-birlərinin təhlükəsizliyinə hədə törətməkdən, siyasi müstəqillik və ərazi bütövlüyünə qarşı hədə və gücdən istifadə etməkdən, habelə BMT Nizamnaməsinin məqsədlərinə uyğun olmayan digər hallardan çəkinmək;
- Dövlət sərhədinin delimitasiyası və demarkasiyası, diplomatik münasibətlərin qurulması;
- Nəqliyyat və kommunikasiyaların açılışı, digər müvafiq kommunikasiyaların qurulması və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığın qurulması.

**Qeyd etmək istərdik ki, iki dövlət məhz bu baza prinsipləri əsasında intensiv, substantiv və nəticəyə yönəlik danışıqlar apararaq ikitərəfli sülh sazişini yekunlaşdıra bilərlər.**

## *BMT-nin İnkişaf Proqramı və Aİ Azərbaycan şəhərlərinə dəstək göndərmək niyyətindədir*

**BMT-nin İnkişaf Proqramı və Avropa İttifaqı (Aİ) Azərbaycan şəhərlərinə dəstək göndərmək niyyətindədir.**

Bunu BMT İnkişaf Proqramının Azərbaycandakı məsul əməkdaşı Suhrob Hocimatov ”Mayors for Economic Growth Facility” proqramı çərçivəsində keçirilən tədbir zamanı deyib.

”Biz Aİ-dəki tərəfdaşlarımızla ümid edirik ki, bu layihə çərçivəsində Azərbaycan şəhərləri öz planlarını əhalinin rifahı naminə reallaşdıra biləcək”, - deyə o bildirib.

S.Hocimatov qeyd edib ki, koronavirus pandemiyası şəhər və digər yaşayış məntəqələri üçün böyük sınaq oldu.

**”Bu gün bələdiyyə başçılarının əlində məşğulluq səviyyəsinin artırılması, dayanıqlı artım prosesinin bərpası və sürətlənməsi üçün imkanlar mövcuddur”, - BMT nümayəndəsi deyib.**

# Bir neçə kəşfiyyatçımızın qarşısından qaçan 1500 erməni əsgəri: Ehtiyatda olan "fərarilər" hərbi təlimlərə çağırıldı

**Bildiyiniz kimi hər bir dövlətdə olduğu kimi Ermənistanın da ordusu var və bu ilin yanvarın 28-də onun 30 illiyi qeyd olundu. Yəni, düz 30 il əvvəl Ermənistan ordu qurdu və o gündən təxminən 1 ay sonra Xocalı soyqırımını həyata keçirdi. Ordu qurulmamışdan əvvəl isə ermənilərin yüksək peşəkarlardan ibarət terror qrupları vardı ki, onlar nəinki Qarabağda, eləcə də Qərbi Azərbaycanda sayı-hesabı bilinməyən qədər soydaşımızı məhv edə biliblər. 1992-ci ildə yaranan Ermənistan ordusunun da mahiyyəti həmin terror qruplarından fərqlənmədi.Terror qrupları kimi Ermənistan ordusu da açıq döyüşə girməkdənsə pusqu quraraq dinc əhaliyə, qadınlara, qocalara, uşaqlara hücum etməyi seçdi.Bu faktı 1992- 2000-ci illərdə də gördük, 2020-ci ildə də gördük... Bərdə Gəncə, Mingəçevir şəhərlərinə atdığı kassetli və qadağan edilmiş mərmilər,silahsız, günahsız insanların kütləvi şəkildə qətli tək erməni ordusunun deyil, erməni toplumunun da mahiyyətini ortaya qoyub.**



30 il torpaqlarımızda at oynadan, bildiyini edən Ermənistan ordusu nəhayət 2020-ci ilin 27 sentyabrda başlanan 44 günlük müharibədə layiq olduqları cəzanı artıqlaması ilə aldı. Bu dəfə onlara nə havadar dedikləri ölkələr, nə 200-ə yaxn erməni terror təşkilatları, nə də dünyaya səpələnmiş, maliyyəsi ilə ordunu ayaqda tutmağa çalışan erməni diasporaları kömək edə bilmədi.44 günlük müharibədə biabırcasına məğlub olan ermənilər düz 16 aydır ki, hələ də özünə gələ, Azərbaycan ordusunun xofundan qurtara bilmirlər.

### *Müharibədən sonrakı Ermənistan ordusunun ümumi mənzərəsi mediada*

”Joğovord” nəşri ”10 mindən artıq Ermənistan vətəndaşı fərarilikdə ittiham olunur” sərlövhəli məqaləsində yazır: ***”Dindirilmə zamanı təqsirləndirilən şəxslər müharibəyə asanlıqla getdiklərini, lakin ”göydən alov yağanda”, həmkarları ”gözləri önündə külə çevriləndə” ya ölməli, ya da xilas olmaq üçün qaçmalı olduqlarını deyirlər. Müstəntiqlər isə fərarilərin hərəkətlərini qanun nöqteyi-nəzərindən necə qiymətləndirəcəklərini bilmirlər. Bu məsələ hələ də səlahiyyətli orqanlar tərəfindən həllini tapmayıb”***

”Vestnik Kavkaza” nəşrində yayımlanan redaksiya məqaləsində rusiyalı hərbi ekspert Oleq Kuznetsov erməni hərbçiləri arasında yayılan fərariliyin səbəbini Azərbaycan Ordusunun gücündə olduğunu vurğulayıb: ”Məsələ Azərbaycan Ordusunun total hərbi-texniki üstünlüyündən gedir. Bu, təbii ki, mənəvi-psixoloji ruhu dağıtdı. Belə şəraitdə dözümlülüyü saxlamaq demək olar ki, mümkün deyil. Bu, kütləvi fərariliyə gətirib çıxardı”.

***BBC-nin rus xidməti yazıb: ”Movses Akopyan artıq müharibənin beşinci günündə 1500 əsgərin fərarilik etdiyini demişdi. General əlavə edib ki, onları Qarabağda saxlayıblar ki, Ermənistana qayıdıb çaxnaşma yaratmasınlar”.***

Separatçı rejiminin başçısı Araik Arutyunyan 44 günlük müharibə zamanı ”Facebook” hesabında canlı yayım zamanı: ”Hadrutdan 1500 erməni hərbçisi bir neçə kəşfiyyat-diversiya qrupunun qarşısından qaçdı. Geri dönməyə və döyüşməyə razı salmağa çalışdım. Satqınlar Qarabağdan qaçan, cəbhəyə getməmək üçün Yerevanda gizlənən həmin kişilərdir”, - deyə bildirdi

### *Ehtiyatda olan fərarilər 1 aylıq hərbi təlimlərə çağırldı*

Adalet.az Sputnik Armeniaya istinadən xəbər verir ki, Ermənistanda ehtiyatda olan hərbçilər təlim-məşq toplanışına çağırılıblar. Təlimlər aprelin 15-dən iyunun 15-dək davam edəcək.

Tədbirin keçirilməsində məqsəd döyüş peşə hazırlığının səviyyəsinin yüksəldilməsi, Silahlı Qüvvələrin sıralarının ehtiyatda olan hərbi qulluqçularla komplekləşdirilməsidir.

Təlim zamanı ehtiyatda olan hərbçilər də döyüş növbətçiliyinə cəlb olunacaq, texnikanın gücləndirilməsi üçün istifadə olunacaq.

**Qeyd edək ki, sonuncu dəfə Qazaxıstandakı iğtişaşları yatırmaq üçün gedən KTMT dövlətlərinin ordusu ilə birgə Ermənistan ordusu da orada olmuşdu və elə ilk həmlədən mitinqçilər tərəfindən xeyli erməni əsgər tərkisilah edilərək əsir götürülmüşdü.**

**Əntiqə Rəşid**

# ”Rusiyanın daha çox diplomatik dəstəyə ehtiyacı var”

**Rusiya-Ukrayna gərginliyi ilə bağlı mediada müxtəlif proqnozlar, şərhlər səsləndirilir. Qərbin Rusiyaya sanksiyaları fonunda Çinin bu məsələdə hansı mövqe sərgiləyəcəyi öz aktuallığını itirmir. Rusiya-Çin münasibətləri hansı çərçivədə davam edəcək?**

Siyasi şərhçi Tural İsmayılov silah-sursat baxımdan Rusiyanın Çindən yardım istəyəcəyni düşünmür. Onun fikrincə Rusiyanın Çinin daha çox diplomatik dəstəyinə ehtiyacı var.



”İndiki məqamda Rusiya hansısa bir formada Çindən hərbi yardım və silah istəsin. Çünki Rusiya özü kifayət qədər müdafiə sənayesi arsenalına və silahlara malikdir. Bu baxımdan mözvunun sadəcə olaraq, hazırkı informasiya savaşı dövründə ortaya atılan spekulyasiya olduğunu hesab edirəm. Bu reallıq olsa belə, Rusiyanın Çindən hansısa köməklik istəməsi o qədər də yalnış dəyələndirilə bilməz. Bir daha qeyd edirəm ki, Rusiya və Çin müxtəlif mövzularda, beynəlxalq platformalarda ortaq şəkildə hərəkət edirlər.

Rusiya Çindən hansısa bir yardım istəyərsə, Çin burada Rusiyanın istədiyi yardımların ona çadırılmasında mühüm rol oynayacaq. Ümumiyyətlə, Çinin hansısa əks addım atacağı, Rusiyanın ondan istəyəcəyi yardımlardan boyun qaçıracağı ilə bağlı hansısa təxminlərin reallaşmaq ehtimalı yoxdur.

İkinci bir formada isə Rusiyanın indiki məqamda Çindən hərbi yardım istəyəcəyini düşünmürəm.

İstəyəcəyi yardımın daha çox diplomatik yardım olacağını düşünürəm. Eyni zamanda hansısa beynəlxalq təşkilatlarda Çinin səsinin də əsas olduğunu nəzərə alsaq, Çinin bitərəf qalmaması və həmin səsvermələrdən yayınmaması istənilə bilər”.

**Emin Piri**



*Tural Bakuvi*

# Ermənistanın dəhlizə bizdən daha çox ehtiyacı var

*İran ərazisindən keçməklə, Ağbəndi Ordubadla birləşdirəcək yeni dəhliz böyük geo-politik uğurdur. Ermənilərin Zəngəzur koridorundan kart kimi istifadə etməsini, bu xətt ilə bu kimi halların qarşısını alacağımızı filan qoyaq kənara. Burada söhbət, daha böyük, daha qlobal layihədən gedir. Avropanının Asiya ilə ticarət dövriyyəsi və sərnişin daşımalarının yarıdan çox hissəsi Belorus-Rusiya ərazisindən aparılırdı. İndi bu nəqliyyat qovşağı sanksiyalara tuş gəlib və yəqin ki, sanksiyalar daha da güclənəcək. Bu isə o deməkdir ki, qərb üçün (həmçinin, Çin üçün) alternativ lazımdır. Alternativ isə Azərbaycan və sözü gedən yeni dəhlizdir. Yəni, Azərbaycan regionun can damarına çevrilir. Özü də, bildiyiniz kimi, Zəngəzur dəhlizi reallaşacağı təqdirdə, Rusiyanın nəzarətində olacaqdı. Paralel olaraq, İranla dünən imzalanan müqavilə ilə Ermənistan İranın qoşulacağı şimal-cənub nəqliyyat dəhlizindən də məhrum olur, çünki bu yol da bundan sonra Azərbaycandan keçəcək.*

*Hə, Zəngəzur dəhlizi də açılacaqmı? Niyə də yox?! Lakin, daha heç kəs bu yöndən bizə şərt irəli sürüb, spekulyasiya edə bilməyəcək. Çünki bu dəhlizə bizdən daha çox onların ehtiyacı olacaq.*

*Azərbaycan dünyada gedən proseslərdən məharətlə istifadə edir.*



*İlhami Cəfərsoy*

# BALTİK DƏNİZİ

**Balta ilə silahlanmış xalqın dənizi deməkdir. Bəzi nənbələrdə ros, bəzilərində rus adlanan Uruz nəsli şimalda normanları özünə tabe etmiş, qatışıq Uruz-varyaq tayfa ittifaqını yaratmışdır. İki yerə bölünərək yenidən cənuba qayıtmışdır. Dnepr çayı boyunu tutaraq Kiyev Uruz-norman dövlətinin əsasını qoymuşdur. Kiyev knyazlığı yarananda slavyan dövləti deyildi, türk dövləti idi. l Pyotrdan sanra onlar slavyanlaşdılar. Əhalinin bir hissəsi isə yevrey dinli xəzərlərdən ibarət idi. Uruz-normanların bir hissəsi isə Volqa çayı boyunda məskunlaşıb slavyanları özünə tabe etdi. lX-Xll əsr ərəb tarixçiləri yazırlar: - Xəzərlərin ölkəsində slavyanlar və ruslar yaşayırlar. Ruslar slavyan deyillər. Onlar slavyanları tutub Aztarxanda qul bazarında satırlar. Uruz-normanlar 943-cü ildə güclü donanma yaradaraq Xəzər dənizi sahillərini taladılar. 944-cü ildə Bərdə şəhərini yerlə yeksan etdilər. Ancaq geri qayıdanda müsəlman əhalini öldürdüklərinə görə Xəzər xaqanlığının müsəlman süvariləri tərəfindən qətlə yetirildilər. Bizim tarix dərsliklərində onlar yanlış olaraq Uruz-norman yox, slavyan-rus, yəni indiki rusların əzdadları kimi təqdim olunur. Biz tarix dərsliklərimizi yenidən yazmalı, onları saxta bilgilərdən təmizləməliyik.**

*AQİL ABBAS*

# MÜDAFİƏ NAZİRLİYİNDƏ PAMBIQ YIĞIMI

*İndiki gənclər bilməz, şükürlər ki, müstəqil olandan sonra day orta məktəb şagirdlərini pambıq yığımına aparmırlar. Şagirdlər bütün güclərini oxumağa, təhsilə verirlər. Ona görə son 30 ildə yusifməmmədəliyevlərin, xuduməmmədovların, arifbabayevlərin (söhbət xanəndə Arif Babayevdən getmir), rafiqəliyevlərin, fərəməzmaqsudovların, əhlimanəmiraslanovların, cəlalallahverdiyevlərin, mirəliqaşqayların və sair və ilaxır sayı o qədər artıb ki, adam sevinməyə bilməz.*

*Yoxsa mənfur Sovet hökuməti vaxtı təhsil o qədər bərbad idi ki, bir dənə də Xudu Məmmədov yetişdirə bilmirdik, nəinki Yusif Məmmədəliyev. İndiki gənclər üçün yazıram. Deməli, yeni dərs ili başlayandan (onda dərs ili sentyabrın 1-i başlayırdı, 15-i yox) təxminən 10 gün sonra məktəbliləri, daha dəqiq desək, 7-10-cu sinif arası şagirdləri pullu rayonlar avtobuslara doldururdu, kasıb rayonlar üstüaçıq QAZ-51, ya QAZ-53-lərə, aparırdı pambıq yığmağa. Və təxminən bir ay uşaqlar dərsdən ayrılmalı olurdular. Yəni dərs ili 9 ay yox, 8 ay çəkirdi. Ona görə məktəblər Xudu Məmmədov hazırlaya bilmirdi və ya Rafiq Əliyev və ya olsun Misir Mərdanov.*

*Səhər saat 7-də yığışardıq məktəbin qabağına, hərəmiz də həm fartuk (önlük), həm də günorta yeməyi götürərdik. Kimin nəyə gücü çatardı. İmkanlılar axşam evdə bişən yeməkdən - dolmadan, katletdən, imkansız uşaqlar isə soyutma yumurta və soyutma kartof gətirərdi.*

*Amma maraqlı burası idi ki, günorta hər kəs gətirdiyi yeməyi tökərdi ortaya. Və hamı birlikdə çörək yeyərdi, kimi istəyərdi dolma, katlet, toyuq soyutması, kimi istəyərdi soyutma kartof və yumurta. Ən maraqlısı o idi ki, soyutma kartofla yumurtanı varlı ailələrin uşaqları yeyirdi.*

*Yuxarı sinifdə oxuyanda uşaqlar artıq su butılkalarında araq da gətirməyə başlamışdılar. Həmin vaxt mən araq içmirdim, mənim payım üstə dava düşərdi. Gözəl günlər idi.*

*Amma bizim pambıq yığmağa getdiyimiz kəndlərdə camaat bizə düşmən kimi baxardı, çünki onların min bir əziyyətlə yetişdirdiyi pambığı bizim yığmağımıza razı deyildilər. Ona görə ki, onlar yığdığı hər pambığın kiloqramına görə 20 qəpik, ilin sonunda da əlavə pul alırdılar. Biz isə gedib onların çörəyinə şərik olurduq. Ona görə də yerli camaat bizə nemes kimi baxırdılar.*

*Həm də pambıq iki cür yığılırdı - biri vəlnən, biri də külləmə. Təbii ki, uşaqlar vəli xoşlamazdılar, külləmə yığardılar, yəni harda yaxşı pambıq vardısa onu götürərdilər. Sonra camaat məcbur idi bizim yığmadığımız pambığı yığsın.*

*Adətən Ağdam məktəblilərini ya Quzanlıya, ya da Üçoğlana aparardılar. Üçoğlana aparanda sevincimin həddi-hüdudu olmazdı. Çünki Üçoğlanla doğulduğum Ağcabədi rayonunun Hacılar kəndini bir Qaralı qobu ayırardı. Dörd dostuma deyərdim ki, ora bizim kəndimizdi, gəlin gedək. Gedərdik əmimgilə, yeyib-içərdik, sonra da hərəmizə 15-20 kiloqram pambıq verərdilər, bir dənə də maşın, qaytarardılar geri. Həmin gün kef edərdik.*

*Kəndlilər bizi niyə söyürdü? Çünki yuxarıda dediyim kimi, onlar hər kiloqrama 20 qəpik və sonra da əlavə aldıqları halda, biz yığdığımız pambığa görə kiloqramına 2-3 qəpik də almırdıq. Deməli, bir ay gedirdik pambığa, sonda aldığımız pul olurdu ya 4 manat 60 qəpik, ya 6 manat 40 qəpik və sair və ilaxır. Mənim oxuduğum məktəb bir ay müddətində çox olsa yığardı 10-15 ton pambıq. Halbuki onu bir pambıqyığan maşın 1-2 günə yığardı.*

*Bunları niyə yazıram? Ona görə ki, indiki gənclik bilsin ki, biz nə əziyyət çəkmişik və niyə bizim vaxtımızda xuduməmmədovlar yetişmirdi.*

*İndi gələk əsas məsələyə. Büdcədən ayrılan pul da həmin pambıqpulu kimi bir şeydi. Deməli, Azərbaycan hökumətinin Müdafiə Nazirliyi üçün büdcədən ayrılan pulu gətirib tökürlər Müdafiə Nazirliyinin həyətinə, "KAMAZ"-larla. Sonra Müdafiə Nazirliyinin əməkdaşları da hərəsi bir fartuk (önlük) bağlayıb başlayırlar o pulu yığmağa, kim nə qədər yığdı-yığdı. Necə ki biz pambıqçıların zəhmətini külləmə ilə əllərindən alırdıq, Müdafiə Nazirliyində də fartuk bağlayanlar eləcə xalqın pulunu pambıq kimi yığırlar. Biri iki milyon, biri on milyon, biri on beş milyon, biri səksən milyon... Kim nə qədər bacardı.*

*İndi baxıram, Müdafiə Nazirliyində "pambıq yığımı" davam edir.*

*Məsələn, mən bir ay boyu 600 kiloqram pambıq yığırdım, alırdım 6 manat, amma məktəbimizin direktoru alırdı həmin 600 kiloqram pambığın pulunu, yəni 600 manat. Çünki bizlərə kiloqramını, pambıqçılar kimi, 20 qəpikdən yox, 10 qəpikdən verirdilər. O da ordan Maarif müdirinin pulunu verərdi və sair və ilaxır.*

*İndi oxuyuram ki, Müdafiə Nazirliyində büdcəyə nəzarət edən sabiq rəis 80 milyon manat "pambıq pulunu" mənimsəyib. Görəsən nə qədəri onun özünündür, nə qədəri "Maarif müdirinin"?*

*Artıq bu, DTX-nın görəcəyi bir işdir.*

*Yadıma bir köhnə anekdot düşdü.*

*Heydər Əliyev Murtuz Ələsgərova zəng edir:*

*- Murtuz müəllim, Rusiyanı Napoleonun hücumundan qoruyan sərkərdənin adı nədir?*

*- Kutuzov.*

*- Onun bir gözü yoxuydu də?!*

*- Bəli, cənab prezident.*

*Yarım saat keçir, bir də zəng edir:*

*- Ələsgərov, İngiltərənin istiqlaliyyətini qazananın adı nədir?*

*- Admiral Nelson.*

*Bir az keçir, bir də zəng edir:*

*- Murtuz müəllim, onun da bir gözü yox idi?*

*- Bəli, cənab prezident.*

*- Murtuz müəllim, bəlkə biz də Səfər Əbiyevin bir gözünü çıxaraq?!*

*İndi, uçastkovı, özün başa düşdün də...*

# HUMAY VİLAYƏT QIZI

**Qədim Türk mifologiyasına görə Humay xeyirxahlıq, yaxşılıq, şəfqət ilahəsinin adıdır. İnsanın adından taleyinə, qismətinə, ömür yoluna nur süzülər, işıq düşər - deyiblər. Ad bəzən alın yazısından xəbər verir, həyat, fəaliyyət rəmzinə çevrilir. Humay Vilayət qızında olduğu kimi... O da qısa və mənalı ömrünü mərhəmət, şəfqət ilahəsi kimi yaşadı. Həyatını insanların və insanlığın xilasına həsr etdi...**

Humay xanım dünyanın nüfuzlu ali təhsil mərkəzlərində mükəmməl təhsil almışdı. Türkiyə Cümhuriyyətinin Bilkənt Universitetində bakalavr, ABŞ-ın Kolumbiya Universitetində magistr pilləsini ingilis dilində bitirmişdir. Bir müddət işlədiyi BP, Dünya Bankı, Financial Times, Azərbaycan Mərkəzi Bankı kimi adlı-sanlı müəssisələr ona ”darıxdırıcı iş yerləri” təsiri bağışlayırdı. Humay Vilayət qızı müharibədən əziyyət çəkən insanlara kömək etmək üçün Beynəlxalq Qırmızı Xaç Komitəsinin Ukraynadakı humanitar missiyasının tərkibinə daxil oldu. İlk səfərləri indi od içərisində yandırılan Mariupolun Şirokino kəndinə təsadüf edib. Sonralar Mərkəzi Afrika ölkəsindəki nümayəndəliyində fəaliyyət göstərib. Hər zaman müharibələr, münaqişələr içərisində çarəsiz qalan, ümidini itirmiş insanlara kömək olmağa, yardım göstərməyə tələsib. Həyat, yaşamaq eşqi ilə qəlbi çırpınan bir gəncin fövqəladə şəraitdə, hərbi münaqişələr məkanında məsum insanların dadına çatması, harayına yetişməsi onun içindən, daxili aləmindən gələn mənəvi gücün, cəsarət duyğusunun, insanlıq hissinin bariz təzahürü idi.





Təxminən on dörd il bundan əvvəl görkəmli ədəbiyyatşünas-alim, ictimai xadim Vilayət Quliyevin Azərbaycan Yazıçılar Birliyində keçirilən beş kitabının təqdimat mərasiminin idarə edilməsi mənə həvalə olunmuşdur. Müəllif xidməti işi ilə əlaqədar ölkədə olmadığından tədbirdə ailənin adından Humay Viləyət qızı iştirak edirdi. Kitabların aktuallığı, əhəmiyyəti, yeniliyi, müəllifin Azərbaycan elminə, ədəbiyyatına, mədəniyyətinə xidmətləri haqqında Arif Əmrahoğlu, Rəşad Məcid, Teymur Kerimli, Şamil Vəliyev, Çingiz Əlioğlu, Gülhüseyn Hüseynoğlu, Oqtay Rza və b. ürəklə, səmimiyyət hissi ilə danışdı. Tanınmış söz adamlarının, peşəkar mütəxəssislərin əsaslandırılmış dəyərləndirmələrini dinlədikcə Humay xanımın atası haqqında qürur hissi keçirdiyi, duyğulandığı aydın sezilirdi. Təqdimatın sonuna yaxın Humay Viləyət qızını xitabət kürsüsünə dəvət etdim. Gənc olmasına baxmayaraq təmkinlə, çox dolğun və mükəmməl nitq söylədi. İstedadı və geniş dünyagörüşü ilk cümlələrindən bəllənirdi. Müqayisəli bənzətmələri, səmimi və məntiqli düşüncələri hamını heyran etmişdi. Humay xanımı dinlədikcə bəlkə də auditoriyada çoxlarının xəyalından belə bir fikir keçirdi: ”İstedadlı gənclər bizim milli sərvətimizdir”.

**Çox təəssüf ki, xalqımızın istedadlı övladlarından biri olan Humay Viləyət qızı bir il əvvəl, ötən ilin mart ayının 13-də Kolumbiyanın Medelin şəhərində çox gənc yaşında dünyasını dəyişdi. Onun dünyanın müxtəlif qaynar nöqtələrində qələmə aldığı hekayələri, xatirələri, təəssüratları müxtəlif mətbuat orqanlarında dərc edilmişdir və çalxalanan mühitimizdə gənclər üçün dəyərli ideya qaynaqlarıdır. Ruhu şad olsun!**

***P.S.** Şəkillər ilk dəfə yayımlanır.*

**Asif Rüstəmli,**
**professor**

## *Ukrayna iqtisadi itkilərini açıqladı*

**Martın 13-nə olan məlumata görə, Rusiya Ukrayna iqtisadiyyatına 119 milyard dollar ziyan vurub. Bunu Ukrayna iqtisadiyyat nazirinin birinci müavini Denis Kudin deyib.**

Onun sözlərinə görə, dəyən ziyanın məbləği hərbi əməliyyatlara görə hər gün artmaqda davam edir.

Kudin bildirib ki, Ukraynanın müharibə səbəbindən ÜDM itkilərini aprel ayından hesablamağa başlayacaqlar:

"ÜDM-ə gəlincə, biz yalnız iqtisadiyyatın hərbi rejimə keçməsindən 1 ay sonra buna yekun vura biləcəyik.

Yəni apreldə biz mart ayının aralıq nəticələrinə yekun vura və sonra müəyyən rəqəmləri deyə bilərik".

Qeyd edək ki, ötən həftə Ukrayna Prezidentinin iqtisadi məsələlər üzrə müşaviri Oleq Ustenko 15 gün ərzində Rusiyanın hücumu nəticəsində ölkə iqtisadiyyatına ən azı 100 milyard dollar ziyan vurulduğunu açıqlamışdı.

**MEHRİBAN**



*Əbülfət MƏDƏTOĞLU*

# Sözün işığında görünən dünya

### *Ustad Zəlimxan Yaqubun ruhuna*

**Yəqin ki, bilirsiniz. Ona görə yəqinliklə deyirəm ki, indi əsrimiz, zamanımız çox şeyləri - faktları, hadisələri, bilgiləri, elektron yaddaşına köçürüb. Ona görə də istənilən mövzunu, məsələni, tarixi faktı öyrənmək üçün kitabxanalara, arxivlərə üz tutmağa ehtiyac, tələbat azalıb. Elə evindəcə, hətta, yolda, maşında da mobil telefonun gücü ilə həmin o arayıb-axtardığın bilginin izinə düşə bilərsən və əldə etdiyimn bilgini də öz süzgəcindən keçirib öz savadını, məlumatlı olmanı göstərmək də sənin üçün problem olmaz. Axı, barmağının altında elektron düymə var!**

Amma bizim zamanımızda, yəni 25-30 il bundan öncə daha çox insanın yaddaşı işə yarayırdı. O yaddaş kitabxanaların, arxivlərin və bir də eşidib şahidi olduqlarımızın hesabına cilalanırdı. Onda savadlı, bilgili olmaq imkanı adamların həm oturub çalışması, həm də Allahın verdiyi istedad hesabına formalaşırdı. Yəni, tək-tək adamları çıxmaq şərtilə , zəhmətə qatlaşmadan, arxivin tozunu udmadan, kitablar dünyasına baş vurmadan heç nə əldə etmək mümkün deyildi...

Mən bu müqayisəni elə belə söz gəlişi ortaya qoymadım. Çünki yaşadığım zaman , çevrəmdəki mühit və mənim özümün də daxil olduğum camiyə indi tamam fərqli olub. Elə fərqli olduğuna görə də yeri Tanrı dərgahında olan SÖZ ayaq altına düşüb. Onu az qala çeynəyib İran saqqızına çeviriblər. Bacaran da, bacarmayan da, gücü çatan da, çatmayan da, biliyi olan da, olmayan da düşüb Sözün üstünə. Ağlına gələni, gözünə görükəni söz şəklinə salır və sonra da umub-küsür ki, onun "Söz"ünü oxuyan yoxdu. Adama deyərlər ki, qardaşım, bacım, anam, atam, əmim, dayım... daha nəyim... Axı sən ortaya Adam Sözü qoymamısan. Əgər qoymuş olsaydın acgözlüklə oxuyardım sənin Sözünü! Və bu yerdə Şeyx Nizamidən tutmuş bu günümüzə qədər sözlə bağlı deyilənləri bir-bir xatırladıb mən də gəlib dayanıram Zəlimxan Sözünün qapısında. Ustad yazırdı ki:

***Ürək kökü, səs qanadı, el gücü***
***Zərif sözdü, kövrək sözdü, incə söz.***
***Bal dillərdə qaymaqlanar, ballanar,***
***Lal dillərdə qısılandı küncə söz.***

Bu, bir həqiqətdi. Gercək, içdən gələn, sevgi dolu, məhəbbət ətirli Söz həmişə bal kimi yayılır adamın canına. Hətta onu dillə yox, baxışla, əl hərəkətləri ilə, mimika ilə ifadə edəndə də o gözəllik, o incəlik öz təravətini təqdim edə bilir. Və baxıb görürsən ki, ustad Zəlimxan demiş, Söz dildən-dodaqdan bal kimi süzülür, özü də beçə balı kimi! O yerə qədər ki, o dinləyicinin, oxucunun iç dünyasında özünü oturda, hopdura bilir. Amma vay ondadır ki, söz ustad demişkən:

***Ovu quşun caynağından saldırar,***
***Hökmü ilə çay dayanar, sal durar.***
***Söz yıxanı Tanrı çətin qaldırar,***
***Şillə sözdü, yumruq sözdü, pəncə söz.***

Fikir verdinizmi sözün gücünə. Hətta Tanrı da bu gücün yıxdığını qaldırmaqda çətinliklə üzləşi. Belə olan halda, yəni Tanrının gücünün çatmadığına inanmadan Sözü yıxmaq, Sözü tapdalamaq cəhd etmək nə qədər insaflı bir işdi? Bunu mən bilmirəm. Bəlkə siz bilirsiniz? Əgər bilirsinizsə, onda birbaşa, ya da dolayısı ilə bir-birinizə söyləyin ki, mənə də gəlib çatsın. Axı Söz:

***Könül ovlar, qəlb ovsunlar, dil açar,***
***Gülləkeçməz qayalara yol açar.***
***Səpiləndə pardaqlanar, gül açar,***
***Xam torpaqdı qoyulanda dincə söz.***

Özü də dincə qoyulan Sözün hardasa unudulması, yaddan çıxması mümkün deyil. Çünki Qan yaddaşı var. Xalq özünün olanı heç vaxt heç kimə qurban vermir. O cümlədən də Sözü də! Bu mənada mən özüm üçün qəbul etdiyim inancların içərisində Sözün işığı, Sözün yeri, Sözün ucalığı əbədidi. O əbədiliyi ustad Zəlimxan da belə vurğulayıb:

***İlahidən gələn nurdu, şüadı,***
***Tanrıların dilindəki duadı.***
***Şəhər-şəhər yaratmışıq bu adı,***
***Təbriz sözdü, Dərbənd sözdü, Gəncə söz.***

Bax elə öncə dediyim fikrin ən gözəl təsdiqi də Təbrizin, Dərbəndin, Gəncənin, Borçalının, Göyçənin, İrəvanın, Şuşanın, Qarabağın həm də Söz olmasıdı. Yəni bu adlar səslərin, sevgilərin ifadəsi olan Sözdü. Deməli:

***Onsuz ömrün nə balı var, nə şanı,***
***O qaynadır qaynayanı, daşanı.***
***Söz Allahın Yer üzündə nişanı,***
***Allah özü, məncə, sözdü, məncə, söz.***

Bəli, bütün bu yazdıqlarım, bu ifadə etməyə çalışdıqlarım da Sözdü. Hətt, mən əminəm ki, Allahın bir adı da Sözdü. Çünki onun "Ol!" ilə başlayıb həyat, başlayıb Söz! Və biz həmin "Ol"la Sözün ip ucundan tutub zaman-zaman gəlmişik, gedirik və bizdən sonra da gedəcəklər. Çünki Dünya, Yer kürəsi, Kainat, ümumiyyətlə, gözümüz görüb ruhumuz hiss etdiyi hər şey Sözün içindədi, Sözün işığındadı. Odur ki, Sənin də, Mənim də Sizin də, Bizim də, elə Hamımızın da Sözünün işığı azalmasın!

**P.S. Ustadın,yəni sağlığında hər görüşüm mənim üçün bir ziyarət olan xalq şairi Zəlimxan Yaqubun "Söz" şeiri nə vaxtdan bəri yazmaq, demək istədiklərimə ağappaq bir işıq yolu oldu. Əslində o yolun özü də elə Sözdü!..**

## *Mixail Şoloxovun Nobel nitqindən*



***"Bəşəriyyət yerin cazibəsindən kənara çıxanda havasızlıq şəraitinə düşüb sanki üzən kosmonavtlar kimi tənhaların, fərdlərin yığımından ibarət deyil. Biz Yer kürəsində yaşayırıq, onun qanunlarına tabeyik. İncildə deyildiyi kimi, bizim hər günümüzə onun dərdləri, tələbləri, qayğıları, sabahın daha yaxşı olacağı ümidi təsir göstərir. Yer əhalisinin nəhəng kütlələri onları ayıran deyil, daha çox onları birləşdirən ümumi maraqlarla yaşayır, eyni məqsədlərlə hərəkət edirlər.Biz qarışıq vaxtda yaşayırıq. Yer üzündə müharibə arzulayan xalq yoxdur. Amma xalqları bütünlüklə müharibə alovuna atan qüvvələr vardır. Bəs onların külü, İkinci Dünya müharibəsinin ağlasığmaz od-alovu yazıçı qəlbini tərpətməyə bilərmi?!***

***Bəs özünü bəşər iztirablarına kənar müşahidəçisi kimi baxan mübarizə tərəflərinin başı üzərindəki Olimpə ucaldılmış tanrılardan hesab etməyən, bəşəriyyətin zərrəsi və öz xalqının oğlu hesab edən yazıçının məqsədi və amalı nə olmalıdır? Oxucuya düzünü demək, insanlara həqiqəti, hətta acı da olsa, mərdanə şəkildə həqiqəti demək, onların sabaha inamını və gələcəyi quracaq fərdi gücünü artırmaq... Bütün dünyada əmin-amanlıq, sülh carçısı, mübarizi olmaq, öz sözünün çatdığı hər bir yerdə bu cür mübarizlər yetişdirməyə çalışmaq... Öz təbii və alicənab cəhdləri ilə adamların tərəqqiyə inamını bir araya gətirmək..."***

*Paylaşdı:*
*Etibar Əliyev*

# DÖVLƏT QAYĞISI: REALLIQLAR VƏ GERÇƏKLƏŞƏN ARZULAR

**Rusiya-Ukrayna timsalında Avropada yaşanan hərbi-siyasi və iqtisadi böhran şəraitində Azərbaycanda sabitliyin qorunması sosial-iqtisadi inkişafın daim yüksəlişdə olması ilə bir daha təsdiqlənir və diqqət çəkir. Vətən müharibəsində böyük qələbəmiz, 44 günlük tarixi qəhrəmanlıq ölkəmizdə böyük ruh yüksəkliyi yaradıb. Havadarlarına arxalanan işğalçı Ermənistanla bağlı ədalətsiz münasibətlərlə üzləşən və haqq yolunda mübarizəsini davam etdirən Azərbaycan üçün reallaşan belə bir üstünlük və sabitlik o qədər də asan məsələ deyildi. Bütün bunlar respublika rəhbərliyinin uğurlu daxili və xarici siyasətini əks etdirir.**

### *İndiki mürəkkəb geosiyasi vəziyyətdə*

respublikada bütün sosial proqramların uğurla həyata keçirilməsi bu reallığı yüksək səviyyədə təsdiqləyir və sevinc doğurur. Bu uğurların Qax rayonunda da müntəzəm xarakter alması bölgənin stabil inkişafından xəbər verir. Qaxın istər dağlıq və dağətəyi kəndləri, istərsə də aşağı düzən kəndləri eyni



qayğı və diqqət sayəsində ən müasir yaşayış məntəqələrinə çevrilməkdədir. Yeni yollar, yeni tikililər, yeni məktəblər, digər sosial və mədəni istiqamətli tərəqqi... Bu mənada rayon mərkəzinin özünəməxsus ənənələr üzərində diqqətəlayiq müasirləşməsi də inkişafın təntənəsidir. Tanıyanlar bilir ki, Qax Rayon İcra Hakimiyyətinin başçısı Musa Şəkiliyev işgüzar və prinsipial rəhbər işçi olmaqla yanaşı, həm də ziyalı və səmimi bir insandır. Bu gözəl keyfiyyətlər onun nüfuzunu daha da artırır, sakinlərə daha da doğmalaşdırır. Bunun da nəticəsi olaraq rayonda yüksək səviyyəli sağlam mühit formalaşır. Əsas məsələ, təbii ki, təbiətin bəxş etdiyi bənzərsiz gözəlliklər fonunda sosial-iqtisadi inkişafın davamlı olmasını təmin etmək, insanların rifah halını yüksəltməkdir.

...Burada, "Qafqaz incisi" adlanan gözəlliklər məskənində bu günlər hərdən-hərdən yazın sanki uzaqlardan gələn xoş qoxusu da duyulur. Bənzərsiz Qax şəhəri də, bu rayonun yaxın-uzaq kəndləri də indilərdə elə ilk bahar özləmində, təşnəsindədir. Hər dəfə bu yerlərin baharı ayrı biçimdə, ayrı bir ovqatda gəlir sanki. Çox uzaqlardan gizlincə gəlir elə bil... Bir dünya gözəlinə dönür, görənləri heyran edir, ofsunlayır, eləcə...

***Bəli, təbiətinin füsunkarlığı ilə hər kəsi özünə cəlb edən Qaxın sosial-iqtisadi inkişafı da göz qabağındadır. Bütün istiqamətlərdən aydınca görünür. Dağları, meşələri, bağları, çayları, bulaqları kimi...***




### *Ölkənin şimal-qərb bölgəsinin incisi sayılan Qax*

rayonunun son illərdə sürətli inkişafı diqqət mərkəzindədir. Respublikamızın hər yerində olduğu kimi, burada da reagionların sosial-iqtisadi inkişafı Dövlət Proqramlarının icrası uğurla həyata keçirilir. Bu rayon indi təkcə həmin o təbiət gözəllikləri ilə deyil, şəhərdəki və kəndlərdəki yenilikləri, müasirləşməsi və nəticə etibarilə əhalinin yaşayış tərzinin yaxşılaşması ilə də fərqlənir, gələcəyə inamla addımlayır. Qax şəhəri daha da gözəlləşir. Bu yerlərin ən sıx turizm marşurutlarından biri olması görülən işlərin əhəmiyyətini iki qat artırır. Modernləşmə yeni xüsusiyyətlər üzərində qurulduğundan inkişafın gələcək perspektivlərinə də işıq salır, insanlarda ruh yüksəkliyi yaradır. Dövlət qayğısı bütün istiqamətlərdə öz bəhrəsini verməkdə, arzulanan inkişafı stimullaşdırmaqdadır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin daim diqqət mərkəzində olan və xeyli səfərlər etdiyi bölgədə Qax rayonunun çoxistiqamətli inkişafı xüsusi əhəmiyyət daşıyır. Rayonun rəhbərliyi və bütün sakinlər həmişə cənab Prezidentə minnətdarlıq edir, bütövlükdə respublikanın inkişafı üçün öz töhfəsini verməyə çalışır. Bütün bu xoş məqamalar rayonun gündəlik həyatında müntəzəmliklə davam etməkdə, yeni-yeni uğurlara köklənməkdədir. Qaxlılar dövlətin, ölkə başçısı cənab İlham Əliyevin siyasəyini dəstəkləyir və gələcəyə, daha böyük uğurların reallaşacağına inanırlar. Son vaxtlar keçirilən görüşlər, söhbətlər zamanı yüksək fəallıq, təşəbbüskarlıq və dövlət başçısına inam və dəstək əsl birlik nümunəsi, vətəndaşlıq mövqeyidir.

Rayonun sosial-iqtisadi və mədəni həyatını müəyyənləşdirən bir çox amillər optimal müzakirələrə sövq edir. Potensiallar sərf-nəzər edildikcə yeni istiqamətlər fomalaşır. Tütünçülük, bağçılıq kimi ənənəvi sahələrin inkişaf etdirilməsi, barama yetişdirilməsinə diqqətin artırılması hamı tərəfindən bəyənilməklə yanaşı, işgüzarlığı da yüksəldir. Eləcə sənaye təməli üzərində digər sahələrin də inkişaf perspektivləri...

Məlumdur ki, daxili və xarici turizmin inkişafı üçün Qax rayonu ən optimal məkanlardan biridir. Turizm burada qeyri-istehsal istiqamətin daha çox gəlir gətirən sahəsidir. Bu sahənin inkişafında dövlət marağı da əhəmiyyətli yer tutur. Rayon rəhbərliyi bütün digər məsələlərlə yanaşı, turizmin inkişafına da xüsusi önəm verir. İcra başçısı Musa müəllim bu mövzudan söhbət düşəndə deyir:

**-Qax rayonu onsuz da qonaq-qaralı yerdir. Burada turizmin daha da inkişafı üçün gözəl şərait və bu şəraiti daha da genişləndirmək perspektivləri var. Məsələyə çox ciddi yanaşırıq. Çünki turizm qeyri-istehsal sahələrindən biri kimi yaxşı gəlir gətirir. Bunun dünya təcrübəsi də bizə məlumdur. Təbii ki, bütün infrastrukturlar, xidmət mədəniyyəti və digər amillər yüksək tələblərə cavab verdikdə. Regionda turizmin inkişafı rayonumuz, camaatımız üçün əlavə gəlir mənbəyidir. Bu səbəbdən də bütün imkanlardan maksimum istifadə etməyə çalışırıq. Rayonda hələ fevral ayından daxili və xarici turistlərin qəbulu və onlara yüksək səviyyədə xidmət göstərilməsinə ciddi hazırlıq işləri görülür. Otellər, istirahət mərkəzləri, restoran və kaferlər, rabitə, səhiyyə, digər xidmət strukturları məlumatlandırılıb. Rayonun mədəniyyət və turizm, gənclər və idman təşkilatları, internet klubları, dövlət qoruğu və başqa strukturlar üçün xüsusi iş planları hazırlanıb. Bütün bunlar deməyə əsas verir ki, Qax rayonu tədricən il boyu turizm üçün əlverişli şəraitə malik olacaq. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramlarında da yer tutan bu məsələ müntəzəmliklə diqqət mərkəzindədir...**

**Məzahir ƏHMƏDZADƏ**

*AQİL ABBAS*

**İNDİ GÖRDÜNÜZ MƏN AYXAN ABBASOVLA BAĞLI DÜZ FİKİRLƏŞMİŞƏM?**

**Dünən Bakının "Neftçi" komandası "Sumqayıt"a qalib gəldi, özü də gözəl oyun nümayiş etdirərək. Və bir yazımı yenidən çap etdirirəm:**

***

# BƏLKƏ AYXAN ABBASOVA YALVARIB QAYTARASIZ "SUMQAYIT"A?

***Ayxan Abbasovun yaratdığı "Sumqayıt" futbol həvəskarlarının sevimlisinə çevrilmişdi. Hətta mən də "Sumqayıt"ın oyunlarına gedib baxmağı xoşlayırdım. Özü də 90 faiz futbolçular yerli uşaqlar idilər. Və demək olar ki, "Sumqayıt" da "Qəbələ" kimi başqa klubların bazasına çevrilmişdi.***



***Lakin biz öyrənmişik ki, ev buzovundan öküz olmaz, lətifəsi Ayxandan uzaq. Ona görə də Ayxanı istefaya göndərib yerinə Belarusdan Aleksey Baqanı gətirdilər. O da güc verdi legionerlərə.***

***Azərbaycanda bütün komandalar çempionluq uğrunda oynamalı deyillər ki, boyunlarına belə bir yük qoyulmayıb. Onlar həm də öndə gedən komandalar üçün futbolçu yetişdirməlidirlər. Ona görə axırıncı yerlərdə olmağa nə "Sumqayıt", nə "Səbail", nə də "Keşlə" dilxor olmamalıdır. Gün gələr onlar da çempionluq uğrunda oynayarlar. Onlar da Avropaya gedərlər, necə ki getmişdilər.***

***Bir də bir şey məni maraqlandırır. "Qəbələ"nin maddi durumu aşağı düşən kimi pullu komandalar bu klubun üzdə olan oyunçularını şirnikdirib apardılar. Halbuki həmin oyunçuların çoxunu "Qəbələ" öz akademiyasında yetişdirmişdi.***

***Bircə misal çəkim. Anatoli Banişevskinin ən yaxşı vaxtı "Neftçi" yüksək liqadan düşdü. SSRİ-nin məşhur klubları nə qədər Banişevskiyə elçi düşsələr də ömrü boyu "Neftçi"yə sadiq qaldı. Bunu da elə belə yazdım.***

## *Pabriks: "Akarı və "Bayraqdar"ları gözləyirik"*



**Türkiyədən NATO daxilində siyasi dəstək gözləyirik. Çünki NATO və AB daxilindəki müzakirələrdə bəzən fikir ayrılıqları olur.**

Bunu Latviya müdafiə naziri Artis Pabriks deyib.

"Müdafiə naziri Akarın yazda Latviyaya səfərini gözləyirik və onu görməkdən çox məmnun olarıq. Türkiyə bir neçə aya "Bayraqdar TB2"-ləri Latviyaya yerləşdirsə, bizi məmnun edərdi. Əgər onlar üç və ya altı ay ərzində hava bazalarımızda qalsa, biz onları həm sınaqdan keçirər, həm də müşahidə missiyaları üçün istifadə edərik. Bu, çox xoş bir dəstək olardı", - deyə Pabriks bildirib.

**MEHRİBAN**

# *Gülxani Pənahın "Əsrin Oğuznaməsi"nə...*



*SALATIN ƏHMƏDLİ*
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*

**(əvvəli ötən sayımızda)**

**Gülxani Pənah param-parça Azərbaycanın ərazi bütövlüyünün təminatçısı olan Azərbaycan Ordusunu döyüş xəritəsini genişləndirməyə çağırır. Zaman-zaman zorla bizdən qoparılan yurdların geri qaytarılmasını, mərd, cəsur Vətən oğullarından daha böyük qələbələrə yol aça biləcək gözləntilərimizi dilə gətirir:**

***Qarabağda doğan günəş***
***Zəngəzurda,***
***Ağrıdağda, o Göyçədə,***
***o Təbrizdə... doğacaqdır.***

***Mənim igid oğullarım***
***iblisləri öz qanında***
***o yurdlarda boğacaqdır!***

Gülxani Pənahın xalqdan gələn, sadə, axımlı xalq dilinin bütün incəlikləri ilə zəngin ifadələri kitabın ruhuna təravət gətirib. Hər bir poetik nümunə mükəmməl bir bədii sənət nümunəsidir.

Bu kitabdakı bayatılar, ağılar, şeirlər orijinallığı, bədii təsir imkanları ilə diqqəti çəkir. Gülxani Pənahın poeziyasına bələd olanlar onun yaradıcılığına hakim olan xalq ruhunu gözdən qaçırmır.

***Eləmi, qalsın dünya,***
***Biz gedək, qalsın dünya.***
***Can əkək, can becərək,***
***Sonra da alsın dünya?!***

***... şəhid yaşı,***
***Olmayır şəhid yaşı.***
***Doğulmamış içində***
***Analar şəhid daşır.***

***... mini birdən,***
***Yüzü tək, mini birdən.***
***Düşmən əlində qoyma,***
***Aparsa məni birdən.***

Gülxani Pənahın "Əsrin oğuznamə"si kitabının aktuallığı böyükdür, dediymiz kimi kitabda üç min şəhiddən iyirmi beşinin ömür yolundan, döyüş yolundan bəhs edilir. Üç min şəhiddən bəhs edərkən bu döyüşlərdə onlarla birlikdə vuruşan qazilərimizin, veteranlarımızın da döyüş yolu işıqlandırılmış olur.

Bütünlüklə on minlərlə vətən oğlunun döyüşdüyü, üç minə yaxın şəhid verdiyimiz, bəzən silahsız, texnikasız, qolumuz gücünə azad etdiyimiz vətən torpağımız Şuşa uğrunda gedən əfsanəvi döyüşlərdən, bu müharibədə qələbənin əldə olunmasında ümumən Azərbaycan əsgərinin şanlı döyüş yolundan bəhs edən belə əsərlər, kitablar çox yazılmalıdır. Bu tarixi hadisələr bədii ədəbiyyatda inikasını tapmalıdır.

Gələn nəsil, yetişən nəsil öz qəhrəmanlarını, torpaq uğrunda canından belə keçən həmvətənlərini tanımalıdır.

Üç minə yaxın şəhidimizin ömür yolundan agah olmalıdır. Bu yolda qazi olan həmvətənlərinin gələcəkdə də hər cür qayğılarla əhatə olunmasında bir vətəndaş kimi mənəvi borcunu bilməlidir.

Bunun üçün onların keçdiyi böyük həyat yolunu özündə əks etdirən oxunaqlı əsərlərin daha çox olmasına ehtiyac var...

### *Gülxani Pənahın "Əsrin Oğuznaməsi"*

kitabının tarixilik prinsiplərinə riayət etməklə yazıldığını, yüksək bədii-estetik keyfiyyətlərlə zənginliyini qiymətləndiririk.

Tarixi qələbəmizdən duyduğumuz milli qürur hissiylə yazılmış hər bir misra, hər bir cümlə vətəndaşlıq ideyaları ilə zəngindir. Gülxani Pənahın bu fikirlərinə hər bir oxucu kimi biz də şərikik:

"44 günlük müharibədə gecə-gündüz xalqının yanında olan, bütün siyasi bacarığını xalq, dövlət naminə əsirgəməyən, beynəlxalq aləmdə baş verə biləcək bütün xarici siyasi ziddiyyətləri göz önünə alıb, qorxmadan savaş meydanına atılan, bütün müxalif qüvvələri - hansı ki, onlar bu vətənin




gələcəyi naminə mübarizədə 1990-cı illərdə birliyi unutdu və bunun bəlasını xalq 30 il çəkdi və bu bəlanı yetərincə dərk edən iqtidara müxalif qüvvələri də apardığı düzgün siyasət nəticəsində dövlət ətrafında sıx birləşdirməyə, dövlətin yanında olmasına nail olan, hər cür təhlükələrə hazır olub, əqidə, dəyanət nümayiş etdirən, haqq-ədalət silahına sarılan Azərbaycan tarixinə yeni səhifə açan - 100 illik dövlət içində qurulan qondarma Dağlıq Qarabağ dövlətini ləğv edən, milyonlarla qaçqın və köçkününə verdiyi sözü tutan, bunun üçün illərlə çalışan, çarpışan, vahid yenilməz, hərbi cəhətdən qüdrətli bir Ordunu yaratmağa nail olan, şərəflə o ordunun Ali Baş Komandanı olmağa layiq olan Azərbaycan Respublikasının prezidenti İlham Əliyevə "alqış, qardaşım, alqış sənə" - deyirəm ".

***Gülxani Pənah "duvaqqapma" xarakterli son sətirlərini yazır: "Dastanımın son vərəqlərini yazıram. Bu dastan qəhrəmanlıq dastanıdır. Eyni zamanda məhəbbət dastanıdır.***

***İgid oğullarımın varlığından qürur duyduğum, dünyadan vaxtsız gedişindən sarsıldığım, itirdiklərimin göynərtisi içimi dağıdan qəm dastanıdır.***

***Olumlu-ölümlü dünyaya etirazım da böyük, incikliyim də böyük, qəzəbim də böyük...***

Allah bütün canlıları yaradanda qəlbi, sözü götürən İnsan olub. İnsan oğlu o gün öz qismətini, öz baxtını öz əliylə yazıb... əksliklər, ziddiyyətlər dünyasına son sözümü deyirəm....

***Gedənləri geri dönməyən dünya...***
***Mənim kimi yanıb-tökülmürsən.***
***Mən ömrün pillələrində***
***kərpic-kərpic sökülürəm.***
***Dünya, necə bəxtəvərsən?!***
***Sən elə olduğun kimi qalırsan,***
***Mənim kimi dağılmırsan,***
***yox olmursan, sökülmürsən."***

Bu misraları da humanist qəlbli müəllifin itirdiklərimizdən doğan ümumxalq kədərinin bədii ifadəsi kimi qəbul edirik.

Dünyanın haqsızlıqlarına üsyan var bu sətirlərdə.

Dədə Qorqud dediyi kimi "olumlu dünya, son ucu ölümlü dünya"dan narazı olan insan oğlunun ədalətsizliklərə üsyanı...

### *Hər şəhid haqqında*

yazdığı yazıların müəllifə verdiyi mənəvi sarsıntılar var; itkinin ağırlığı, görüşdüyü ailələrdə şəhid balalarının məlul-məlul baxışları, anaların gözündəki dərd dağı, ataların köksündəki yaranın göynərtisi həssas qəlbli şairin - Gülxani Pənahın ürəyində yara açıb, sözə, misraya dönüb, gözünün yaşıyla ürəyinin göynərtisi ilə birgə axıb... kitab olub...

Sülh, əmin-amanlıq, insanlıq, humanizm ruhunda, genində olan Vətəndaş şair Allahdan diləyində də safdır, humanistdir, səmimidir...

***Allahım,***
***Bu ümidlərə,***
***diləklərə səndən başqa***
***loğman yoxdur, yoxdur...***
***Sən bilirsən bu millətin***
***süfrəsinin***
***tamını,***
***O süfrədə bircə tikə***
***haram loxma yoxdur, yoxdur...***
***Qismətimə bu torpağı***
***sən yazmısan,***
***bu torpaqda doğulmuşam,***
***Saf bir sevgi, amal ilə***
***bu torpaqdan yoğrulmuşam.***
***Torpağına bağlı bu can,***
***torpaq ilə bütöv canam.***
***Mən vətənəm, mən torpağam,***
***Azərbaycanam!***

***Başım üstdən əskik olma,***
***iblis, şeytan uzaq olsun...***
***İmkan vermə, "Allah, Allah"***
***deməkdən***
***dilim-ağzım sazaq olsun!***
***dilim-ağzım sazaq olsun!***

Gülxani Pənahın "Əsrin "oğuznamə"si kitabı innən belə hələ çox "oğuznamələr"in yaranmasına yol açacaq...

Azərbaycanın sağlamlığını vətən yolunda qoyan qaziləri, milli qəhrəman olan, döyüşən, vuruşan, bu gün də aramızda olan müharibə veteranları var, onların hər birinin həyatı bir dastandır, eyni zamanda Vətənimizin hər guşəsində, hər bölgəsində "Şəhidlər Xiyabanı"nda uyuyan oğulların qəhrəmanlıq dolu həyat tarixçəsi var və min "oğuznamə"nin mövzusu ola bilmək qüdrətinə malikdir.

Qələminiz iti olsun, yazarlarımız. Hələ çox qəhrəmanlıq dastanları yazılmalıdır... müəllifi siz olun!

"Əsrin "Oğuznamə"sinin müəllifi Gülxani Pənahın dediyi kimi sağı da, şəhidi də mənə əziz olan hər bir vətən uğrunda silaha sarılan oğuldan

***Sormaram adını, nəçisən, kimsən?***
***Amalın müqəddəs, işin müqəddəs.***
***İçimdə ağlayan səsimsən mənim,***
***Vətən müqəddəsdir, sən də müqəddəs.***

**Kədəri kədərimiz, yoxluğu dərdimiz, igidliyi qürurumuz, amalı amalımız olan XXI "Əsrin oğuznaməsi"nin qəhrəmanlarından şəhid olan oğullarımıza rəhmət diləyirəm.**

**Başın sağ olsun, Vətən!**



Seyran CAVADOV

# Dəmir Yumruq

(əvvəli ötən sayımızda)

44 günlük bu davada,
bu savaşda
Azad oldu Cəbrayıldan
Kəlbəcərə,
Laçınadək
Sıra ilə kənd-şəhərlər.
O şəhərlər, o kəndlər ki,
Adı qalıb, özü yoxdur.
Dağıdılıb, yandırılıb,
Talanaraq maşın-maşın
aparılıb.
Gül bitirən torpaqların
sinəsinə
Çalın-çarpaz
dağ çəkiblər.
O güllərin, çiçəklərin
əvəzinə
Qazıb minalar əkiblər.
Məscidlər də, məktəblər də,
muzeylər də,
O tarixi binalar da,
Babaların, nənələrin
ruhu yatan
Məzarlar da, qəbirlər də,
İnsanlara həyat verən
bulaqlar da,
meşələr də -
Hər şey, hər şey
viran olub
Başdan-başa.
Qoymayıblar bu vəhşilər
Daş üstündə
bir daş qala.
Görənlərin gözlərində,
yaddaşında
Bir mənzərə, bir faciə
donub qalır.
Xirasimo bənzərində
olan bir yer
Cah-cəlallı, şan-şöhrətli
Ağdam adlı bu şəhərin
Keçmişini yada salır.

***

Təsəllimiz Qələbədir.
Bizim üçün bu hər şeydir.
Həm vicdandır,
həm namusdur,
həm qeyrətdir.
Min illərin o tayından səsi gəlib
Bizə çatan əmanətə -
Bu Vətənə məhəbbətdir,
sədaqətdir.
Qarabağın hər yerində
Bu gün, bu dəm
Bir təntənə, bir büsat var.
Dalğalanır Bayrağımız
Qürur, şərəf, vüqar ilə.
Əl uzatsa, əli çatar
Kəhkəşanda ulduzlara.
Qurub, tikib yaradırlar -
Yol çəkilir, yeni evlər
ucaldılır,
Hər bir şeyə can verilir.
Bənna qardaş daşın hörür.
Əkinçi də öz dostundan
qalmır geri,
Yer şumlayır, mala çəkir,
toxum səpir.
İşıqçı öz işindədir,
işıq çəkir.
Meşəçi də meşə salır,
ağac əkir.
Yol çəkənlər bir an belə
dayanmadan
O dağların, düzənlərin
sinəsindən
Tunel qazır,
Gör necə də yollar çəkir,
körpü salır.
Əziz Şuşa bax gör necə
Təzələnib, gözəlləşib,
Dirçəlibdir son bir ildə.
Doğmaların, əzizlərin,
Bizi sevən hər bir kəsin
Əllərinin hərarəti, məharəti,
Haqdan gələn nəfəsiylə.
Xarıbülül görüb bunu
Baş qaldırıb, uçub qonub
Sinələrə, yaxalara.
"Şikəstə" də pərvaz edib
Pərdə-pərdə
yayılıbdır
bu dağlara,
dərələrə.
Cıdır düzü sinəsində
yer veribdir
Həsrət ilə gözlədiyi
adamlara,
Yaxın-uzaq ölkələrdən
Gələn əziz qonaqlara.
Şair olan, hər bir işdən
Vaqif olan,
Gözəllikdən, gözəllərdən
ilham alan
Molla Pənah Vaqifin də
məqbərəsi
Qayıdıbdır öz halına,
görkəminə.
Üzeyir bəy, o Xan qızı
Natəvan da,
Bülbül səsli o Bülbül də
qovuşublar
Dədə-baba ocağına.
Əyləşiblər əvvəlkitək
Doğma, əziz mədəniyyət
paytaxtında.
Doqquz ayın özü belə
Çaytək axan zaman üçün
Böyük deyil, qısa vaxtdır.
Füzulidə yaradılan
Qarabağın göy qapısı -
O təyyarə limanı da
Bu zamanın,
Qələbənin içindəki
Qələbədir, nailiyyətdir,
yüksək addır.
İlk olaraq uçub gələn
bu limana,
Qardaşına, soydaşına,
Keçmişinə, indisinə
Məhəbbəti, sədaqəti
sonsuz olan,
Bu yolunda bir an belə
Nə dayanan, nə yorulan
Türk qardaşım,
Prezidentim
Ər oğlu ər Ərdoğandır.
Dediklərim bitməyibdir,
Saya gəlməz demədiyim,
Ay qardaşım, ay soydaşım,
ay əzizim.
Bayaq dedim:
44 günlük bu Qələbə
Yaranmadı elə-belə.
Bunun üçün gör nə qədər -
3 min nəfər
Şəhid verdik.
O yaralı qaziləri
Gətirmirəm dilə hələ.
Dövlətimiz, millətimiz
Vətən üçün, bizim üçün
Canın, qanın verənlərin
Xatirəsin əziz tutur
dünya qədər.
El yolunda ölənlərin,
gedənlərin
Qanı batmaz, getməz
hədər.
Batmadı da, getmədi də,
Azad oldu
babamızdan babamıza,
Ulumuzdan ulumuza
Qalan torpaq, ana torpaq -
Doğma, əziz o Qarabağ.
Bundan belə ildən-ilə
Yüksələcək Azərbaycan.
Başdan-başa gül-çiçəyə
bürünəcək
Odlar yurdu Azərbaycan.
Düşmən görüb xar olacaq,
Dostlar isə sevinəcək.
Ay dolanıb il keçəcək,
Şəhidlərsə xalqımızın
Ürəyində, xatirində,
Qalibiyyət, əbədiyyət
nişanəsi,
nəğməsitək
Əsrlərlə yaşayacaq.

Çəkilər duman da, çəkilər çən də,
Həm Allah sevinər, həm də ki bəndə.
Dava qurtaranda, üzlər güləndə
Şəhidlər qayıdar yenə bu yurda.

Torpaq rahatlanıb nəfəs alanda
Durular əhval da, durular qan da.
Arzu cücərdikcə ürəkdə, canda
Şəhidlər qayıdar yenə bu yurda.

Bir oğul evlənsə, bir gəlin köçsə,
Aşıq sinəsində sazıyla ötsə,
İgidlər, ərənlər girəndə bəhsə
Şəhidlər qayıdar yenə bu yurda.

Bir dəli gülüşün uğultusunda,
Körpə bir uşağın qığıltısında,
Elin şad günündə, elin yasında
Şəhidlər qayıdar yenı bu yurda.

Yananda hər evdə toy-bayram şamı
Sevinər el-oba, sevinər hamı.
Həftədə bir dəfə - cümə axşamı
Şəhidlər qayıdar yenə bu yurda.

Yayılsın bu sədam şəhərə, kəndə,
Dedim sözlərimi ürək dinəndə.
Bütün Azərbaycan bütövləşəndə
Şəhidlər qayıdar yenə bu yurda.

Böyük Babək, Şah İsmayıl
Xətayidən
Üzü bəri çox cəfalar,
müsibətlər,
haqsızlıqlar
Görüb bu xalq.
Pərən-pərən düşsə belə,
yenə, yenə yaşayıbdır.
Çətin anda, dar məqamda
Ulu Tanrı xilas edib,
qoruyubdur
Bu milləti, məmləkəti.
Belə oldu bu dəfə də.
Zəfər çaldıq, qalib olduq.
Amma yenə deməliyəm,
bu Zəfərin,
Qələbənin
Mühüm şərti üç amildir:
Biri xalqdır, biri Ordu.
O birisi sədaqəti,
iradəsi,
cəsrəti,
siyasəti,
əqidəsi,
Cismindəki varlığıyla
Vətəninə,
millətinə,
dövlətinə
Bağlı olan,
Mümkünsüzü mümkün edən,
Hər bir işin nizamını,
məqamını,
Necə etmək peşəsini
Yaxşı bilən, yaxşı görən,
Bir oğultək
Ulu Öndər vəsiyyətin
Uca Tanrı köməyiylə
icra edən,
Öyrədilib üstümüzə
göndərilən
Neçə-neçə pisniyyəti
Ən tutarlı və məntiqli
cavablarla
xəcil edən,
Bu Zəfərin, bu birliyin,
Bu Yumruğun müəllifi,
müəllimi,
Azərbaycan tarixində
Dünya durduqca duracaq,
Biz gedəcik, o qalacaq
Prezidentdir.
Alidən də ali olan
O Ali Baş Komandandır.
Xalqı ilə, Ordusuyla,
Yumruğuyla hər vaxt,
hər an
sərvaxt olan
Heydər oğlu İlhamımız
Əliyevdir.

## Sevgilisinin saxtakarlığını bilən Şeyma Subaşı ayrıldı



**Şeyma Subaşı gah küsüb, gah da barışdığı sevgilisi misirli sevgilisindən birdəfəlik ayrılıb.**

Adalet.az HaberTürk-ə istinadən xəbər verir ki, məşhur aparıcı Acun Ilıcalının keçmiş həyat yoldaşı, sosial media fenomeni Şeyma Subaşı misirli sevgilisi Məhəmməd Alsaloussidən (Meedo) ilə münasibətində xoşbəxt son olmayıb.

Ötən il iyunun 5-də Meedo Şeyma Subaşına evlilik təklifi etmişdi. Meedonun sevgilisi üçün aldığı üzük İbizadakı təklifdən daha çox danışıldı. Bir müddət sonra Şeyma Subaşının hamilə olduğu və bu səbəbdən toy prosesinin sürətləndiyi iddia edildi. Xəbəri Şeyma özü təsdiqlədi və bu açıqlamadan iki gün sonra körpəsini itirdiyini açıqladı:

"Əvvəldə yazmışdım ki, toy yüksək stress səbəbindən təxirə salınıb. Təəssüf ki, bu stressin körpəmi itirməyimə səbəb olduğunu sizə bildirməliyəm. Çox təəssüf edirəm. Dəstəyiniz üçün təşəkkür edirəm".

Şayiələrə görə, Məhəmməd Əlsaloussinin aldığı bahalı hədiyyələrin hamısının, xüsusən də Şeyma Subaşına taxdığı solitaire üzüyünün saxta olduğu üzə çıxıb. Ona edilən bütün jestlərin saxta olduğunu öyrənən Şeyma Subaşı sevgilisindən ayrılıb.

Qeyd edək ki, Məhəmmədi İstanbula gətirən və nişanlım deyən Şeyma Subaşı ikinci ayrılıqdan sonra birlikdə çəkdirdikləri bütün şəkilləri sosial media hesabından silib.

**Əntiqə Rəşid**

## "İnsan beynində ən sürətli yayılan xəstəlik düşüncə xəstəliyidir "

*Həmsöhbətimiz İmişli rayon Vətən Novruzov adına Sarıxanlı kənd 1 saylı tam orta məktəbinin Azərbaycan dili və ədəbiyyatı müəllimi İlkanə Məmmədovadır.*

**-Universiteti yeni bitirən bir gənc müəllimi rayon mərkəzindən uzaq yerdə kənd müəllimi olmağa razı salan səbəb nədir?**

-Bir müəllim olaraq bununla bağlı konkret səbəblər demək çətindir. Çünki müəllimlik məntiqdən daha çox mənəviyyat və duyğularla əhatələnmiş bir peşədir. Düzünü desəm, müəllim olmağa qərar verdiyim andan etibarən bu ixtisasın çətinliklərini göz önünə gətirmədən çalışmışam. Düşünmüşəm ki, cəmiyyətin memarı sayılan müəllimlik sənətinin yolu məhz belə də olmalıdır. Ona görə də işimin yaşayış yerindən uzaq olmasını müəllim olaraq bir çətinlik hesab etmirəm.



**-Adətən bəziləri başqa ixtisaslara sahib olmaq istərkən təki harasa qəbul olsun deyə müəllimlik ixtisası olan fakültələrdə oxumalı olur. Beləcə istəksiz müəllimlər ordusu yaranır. Sizdə necədir?**

-Gözəl sualdır. Universitetdə təhsil aldığım müddətdə şəxsən tanıdığım bir çox tələbədə bu psixologiya ilə qarşılaşmışam. Bu problem iki səbəbdən yarana bilər. Birincisi budur ki, abituriyent zamanında şagirdlərin həddən artıq təcrübəsiz olması.

İkinci, ən əsas səbəb isə valideynlərin və ya sosial əhatənin yanlış yönləndirməsi. Şəxsən öz adıma deyə bilərəm ki, məndə bunlardan heç biri yaşanmadı. Təbii ki, qəbul balımın yüksək olmasına görə ətrafımdan çox insan müxtəlif peşələri seçə biləcəyimi mənə xatırlatdı, lakin son qərarı özüm verdim.

**-Kənddə kirayə qalırsınız, ya? Çətin deyil?**

-Xeyr, kirayə qalmıram. İş yerim öz yaşadığım rayonda olduğu üçün bu məsələdə heç bir problemim yoxdur. Gündəlik qrafikim ilk il işləyən müəllim üçün yorucu görünə bilər, lakin bunları proqramlaşdırmaqda heç bir problemim olmur. Nə qədər ironiyalı görünsə də, həyatım boyu zamanla mübarizə aparmışam desəm, yalan olmaz.

**-Qıraqdan baxanlarçün kənddə müəllim kimi çalışmaq romantik görünür. Vaxtilə özüm də kənd yerində yaşadığımdan bu söylənilənlər heç də elə deyil. Xüsusən, bir çox çətinliklərə, eyni zamanda paytaxtdan uzaqlığa görə.**

-Haqlısınız, eyni çətinliklərlə mən də tez-tez üzləşirəm. Etiraf etməliyik ki, rayonlarda nəqliyyat məsələsi ürəkaçan vəziyyətdə deyil. Vahid nəqliyyat sisteminin olmaması, nəinki müəllimlərin, yerli əhalinin də əziyyət çəkdiyi əsas problemlərdən biridir. İkinci ən mühüm problem isə bəzi mental "dəyərlərin" həddən artıq şişirdilməsi, bir həyat qanununa çevrilməsidir ki, bu barədə xalq olaraq nə qədər danışsaq, ürəyimiz soyumaz.

*Onların həyəcanlarının, sevinclərinin bir parçası olmaq möhtəşəm duyğudur*

**-Azərbaycan dili və ədəbiyyat müəllimlərinə adətən bu sualı verirəm. Çünki cəmiyyətimizdə çağdaş mühit üçün həssas mövzudur. Elə dərsliklə kifayətlənirsiniz, yoxsa müasir çağdaş Azərbaycan ədəbiyyatı haqqında da şagirdləri bilgiləndirir, müzakirə aparırsınız?**

-Hazırkı dövrdə heç bir fəndən dərsliklə kifayətlənmək mümkün deyil. Əsasən, dünya ədəbiyyatı nümunələri ilə şagirdləri tanış etməyə çalışıram ki, dünyagörüşləri yaşadıqları mühit ilə çərçivələnməsin. Çağdaş yazıçılarımızdan, Ülviyyə Tahirin "Aljir" romanını oxuyaraq müzakirəsini aparmışıq. Yəni verdiyiniz suala rahatlıqla "bəli" cavabını verə bilərəm.

**-Özünüz həm də ədəbiyyatçı olaraq çağdaş ədəbiyyat adamlarından kimləri oxuyursunuz?**

-Aqşin Yenisey, Kamal Abdulla, Aqşin Evrən, Ülviyyə Tahir. Xarici çağdaş ədəbiyyat adamlarından, isə məndə xüsusi yeri olan sənətkar Laurent Gonuelledir. Əfsuslar olsun ki, onun da heç bir əsəri dilimizə tərcümə olunmayıb. Buna görə də şagirdlərim bu sənətkardan məhrum olaraq böyüyürlər.

**-Siz özünüz də yuxarı sinif şagirdlərindən 3-4 yaş böyüksünüz. Bu hansısa çətinlik yaratmır?**

-Xeyr, qətiyyən. Əksinə müəllim-şagird münasibətlərinin davamlı inkişafına dəstək olur. Şəxsən mənim üçün yuxarı sinif şagirdləri ilə işləmək bir ayrı cür zövq verir, çünki onların həyəcanlarının, sevinclərinin bir parçası olmaq möhtəşəm duyğudur.

**-BDU-da oxumusunuz. Bir növ şəhər mühiti ilə tanışsınız. Şəhər mühitini kənd həyatından, insanlarından fərqləndirən xüsusiyyətlər nələrdir?**

-Şəhər və kənd mühiti arasındakı fərqləri saymaqla qurtamaq olmaz. Nə qədər acınacaqlı olsa da, deməliyəm ki, kənd mühitində oğlan olaraq doğulmaq həyata bir addım öndə başlamaq deməkdir. Çünki belə mühitlərdə bütün mental "dəyərlər" in hamısı qadınların, qızların üzərinə yüklənir. Deyəcəksiniz ki, bu problem xalq olaraq bütün bölgələrimzdə mövcuddur. Lakin şəhər mühitində bununla bağlı az da olsa, maarifləndirici tədbirlər olur. Lakin rayonlarda, xüsusilə, kənd yerlərində gənc nəsil mentalitet qurbanı olaraq böyüyür...

**-Məlum olduğu kimi MİQ-lə bağlı dəyişikliklər oldu. Xüsusən, ucqar yerlərdə işləyənlərçün əlavə bal şansları(1.1 bal) yaradıldı. Ümumilikdə bu dəyişikliklərə necə baxırsınız? Və ya nələri təklif edərdiniz?**

-Bal güzəştlərinin edilməsi müsbət haldır. Dəyişikliklərlə bağlı fikirlərim müsbət istiqamətdədir. Sadəcə gələcəkdə təhsil islahatları ilə bağlı yeniliklərdə bəzi vacib fənlərin orta məktəb proqramına daxil edilməsini arzu edirəm. Bunlardan ən vacibləri "Fəlsəfə" və "Genderə giriş" fənləridir.

Düşünürəm ki, bir insanda vahid dünyagörüşünün formalaşdırılması cəmiyyət üçün vacib meyarlardan biridir. Gözəl bir deyim var:

İnsan beynində yayılan ən sürətli xəstəlik düşüncə xəstəliyidir. Hal-hazırda yaşadığımız bütün problemlərin çoxunda düzgün düşünməyi bacarmamaq amili dayanır.

**Söhbətləşdi:**
**Emin Piri**

## Ramil Məmmədov: "Bir qadın zaldan ayağa qalxdı və dedi ki, bu nə tamaşadı oynayırsız?"

*Adalet.az-ın bu dəfəki müsahibi Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı və alternativ "Səhnə" teatrının aktyoru Ramil Məmmədov oldu.*

**- Ramil, özünü necə təqdim edərsən?**

- Ramil Məmmədov. Bakıda anadan olmuşam. Mədəniyyət və İncəsənət Universitetinin dram teatrı və kino aktyorluğu fakültəsini bitirmişəm. İki İrəvan Dövlət Azərbaycan Dram Teatrında işləmişəm. Sonra öz xahişimlə işdən çıxıb 2013-cü ildən Gənc Tamaşaçılar Teatrında işləməyə başlamışam. İki ildir ki, həm də alternativ teatr olan "Səhnə" teatrında çalışıram.

**- İşlədiyin bu üç teatrın bir-birindən fərqi nədədir?**

- Heç vaxt işlədiyim teatrları bir-birilə müqayisə edib birini o birindən aşağı, yaxud da üstün tutmamışam. Amma məlum məsələdir ki, şəhər teatrları aktyorlar üçün daha arzuolunandır. Gənc Tamaşaçılar Teatrından əvvəl Musiqili Teatra müraciət etmişdim, amma iki ay get-gəldən sonra işə götürmədilər.

**- Səbəb?**

- Dərinə getmək istəmirəm. Həmişəki kimi adını qoydular ki, səsin yoxdur. Amma orda işləyənlərin hamısının çox gözəl səsi var axı. Gənc Tamaşaçılar Teatrına gələndə o zamanlar baş rejissor Bəhram Osmanov idi. Bu teatrın mənim üçün üstün tərəfi ondadır ki, gündüz uşaq tamaşası oynayırsan. Tutaq ki, dovşan obrazını. Axşam da toparlanıb "Şeyx Sənan", "Leyli və Məcnun"da oynayırsan. Bu aktyor üçün çətin, amma deyərdim ki, çox yaxşı əlamətdir. Aktyor nə qədər cilddən-cildə girməyi bacararsa, bir o qədər akademik səviyyəyə çata bilər.

**- Ramil, biz şairlər öz intonasiyamızı tapana qədər müəyyən mərhələlər keçirik və sonda özümüzü tapırıq. Bizi şair kimi qəbul edirlər. Bəs sənin üçün aktyorluq nədir? Özünü aktyor kimi necə tapmısan?**

- Məlum məsələdir ki, ümumi qaydalar var. Bu sənətin bəlli nəzəriyyəsi var. Bununla yanaşı da qeyd etdiyin kimi hər bir aktyorun fərdi yanaşma üslubu olmalıdır. Yəni aktyorluq sənətində ən vacib məsələ rol üzərində işləməyi bilməkdir. Bu da təcrübə, professional rejissorların tapşırıqlarını eşitməklə ərsəyə gəlir. Mənim metoduma gəldikdə isə çalışıram ki, həyatda etdiyim müşahidələrdən bəhrələnim. Müşahidə etməyi çox sevirəm. Aktyor nə qədər şəxsiyyət olarsa, kamil olarsa, onun analiz etdiyi obrazlar da səhnədə mükəmməl olar. Kamal Xudaverdiyev, Fuad Poladov, Ramiz Novruz, Şövqi Hüseynov… Bu insanlar nə qədər şəxsiyyətdirlərsə, səhnədə də əzəmətli görünürlər.

**- Sənin üçün kiçik və böyük rol ölçüsü varmı?**

- Belə bir fikir var - rolun böyüyü, kiçiyi yoxdur. Əslində böyük aktyor kiçik obrazda böyük iş ortaya qoya bilər. Amma biz teatra gələndə kütləvi səhnələrdən başlayırıq, ta ki gəlib böyük rollara çatana qədər yol keçirik. Amma bu o demək deyil ki, böyük aktyordur, kiçik obrazı da böyük oynayacaq deyə ona kiçik obraz verilə bilər. Böyük rolu böyük aktyor, kiçik rolu isə kiçik aktyor oynamalıdır.

**- Film və teatr arasında qalmaq səni sıxmır ki?**

- Əlbəttə ki bu ikisi arasında fərq var. Filmdə sən təkcə kameraya, onun tələblərinə uyğun oynayırsan, teatrda isə amfiteatrda oturan ən axırıncı adama belə hissini, həyəcanını ötürməlisən. Bu mənada teatr aktyorluğu daha böyük sənətdir. Amma istənilən halda aktyor elə aktyordur. İstər teatrda, istərsə də filmdə.

**- Tamaşaçı teatrda niyə gəlmək istəməsin?**

- Əslində biz haramızsa ağrıyanda, ümumən həkimləri qınayırıq. Tamaşaya da tamaşaçı gəlmirsə, bu bizim problemimizdir. Teatr elə bir çətin sənətdir ki… Zaman, zövq və düşüncələr dəyişdikcə teatr da yenilənməlidir, dəyişməlidir. Klassiklər dahi olub, təbiidir, amma yeni rejissorlar lazımdır ki, o əsərləri müasirləşdirib zamanla səsləşdirə bilsin. Amma yeni yazarlara mütləq ehtiyac var. Məsələn, bu yaxınlarda Ayla Osmanovanın quruluşunda Pərviz Seyidlinin "Mələk" tamaşasını təhvil verdik. Maraqlı qarşılandı. İndiki tamaşaçı çox ağıllıdır, ona əsas mesajı versən bəs edir. Özü nəticə çıxaracaq.




**- Bu yaxınlarda M.F.Axundzadənin "Dərviş Məstəli Şah və Müsyo Jordan" əsərinin motivləri əsasında hazırlanmış "Bir dəfə Qarabağda" adlı tamaşada Müsyo Jordanı oynadın. Elə səni də bu tamaşa ilə yaxından tanıdım. Bizə qədər Müsyo Jordanın bəlli bir tipajı vardı. Sənin üçün bu obrazı oynamaq çətin olmadı ki? Bu obraza özündən yeni nələr qatdın?**

- Açığı heç vaxt mən bu obrazı oynamaq arzusunda olmamışam. Bu obrazı oynayandan sonra anladım ki, Müsyo Jordanın mənası nədir. Gəldi, fıransızca danışdı, getdimi? Tamaşanın quruluşçu rejissor Elvin Mirzəyev hadisələri o qədər gözəl açdı ki. Qərbi Şərqə olan cığal münasibətinin ta o vaxtdan bu yana münasibətini gördük. Götürsən II Qarabağ müharibəsini, o ərəfədə də Fransa bizə qarşı qərəzli mövqedə idi. Yəni bayaq dediyim fikrə qayıdıram, klassiklər əsərləri o qədər gözəl yazıblar, sadəcə onları müasir dövrlə səsləşdirmək lazımdır. Elvin bəy də mövzuya məhz bu aspektdən yanaşdı. Obraza gəldikdə isə mən əvvəlcədən bilmirəm ki, bu obraz necə yeriyəcək, necə oturub-duracaq. Rejissorun tapşırıqları, izahları ilə yavaş-yavaş anlamağa başladım, öz içimdəki hisslərimdən istifadə etdim və obrazı oynadım.

**- "Uçurum" serialında çəkilmisən.**

- Bəli. Çox maraqlı proses idi, serialın çəkilişləri bitib və hal-hazırda televiziyada yayımlanır.

**- Ramil, seriallarımız məişətdə ilişib qalıblar, yəqin ki bunbunla razısan.**

- Razıyam. Deyirlər ki, tamaşaçının tələbi budur. Xeyr. Sən tamaşaçının zövqünü öz səviyyənə qaldırmalısan.

**- Və qeyd etdiyin kimi serialın çəkiliş prosesləri çoxdan bitib və yayımlanır. Mənim də aktyor, aktrisa dostlarım çoxdur. Sizin sahədən xəbərim var. Bir sezonluq serialı 2 ay içində çəkib bitirirlər. Halbuki Türkiyəyə və digər ölkələrə nəzər salsaq, bir seriya bir həftəyə çəkilir və yayımlanır. Bu iş prosesi bizdə çox ağırdır. Bəzən aktyor günlərlə çəkiliş meydançasından çıxmır, Orada yatır, orada yeyib-içir. Müqabilində aldığı pul isə…**

- Məlum məsələdir. Proses çox çəkərsə, o serialı ərsəyə gətirilən heyətin pulu verilməlidir. Tez çəkirlər ki, pul da az getsin.

**- Amma hansısa xarici aktyorlar müqavilələrində elə şərtlər qoyurlar, mat-məəttəl qalırsan. Məsələn, biri deyir ki, fasilə ərzində mənim masamda filan şeylər olmalıdır. Bunun biri olmasa, müqaviləni pozacam. Yəni onların bu cür lüksü var. Bu lüksü görəndə özünü bir aktyor kimi necə hiss edirsən?**

- Qovdu-qaçdı ilə yaradıcılıq olmur. Olur, amma keyfiyyət yüksək olmur. Məsələn, serialda oynayırsan, amma o enerjini tamaşaçıya ötürə bilmirsən.

**- Bəs yaxşı, kimlərdən bəhrələnmisən?**

- Universitetə qəbul olanda arzum idi ki, iki müəllimdən dərs alım. Bir Amaliya Pənahovadan, bir də Kamal Xudaverdiyevdən. Allah məni o qədər sevir ki, elə birinci kursda Kamal Xudaverdiyev mənə dərs deyəcək müəllimlərdən biri oldu. Kamal müəllim rəhmətə gedəndən sonra Sona Mikayılova dərs dedi. Fərhad İsrafilovdan da dərs almışam. Bu universitet həyatımdır. Amma fərdi olaraq öz sevdiyim, izlədiyim, bəhrələndiyim aktyorlar həmişə fərqli-fərqli xarakterlər oynayan aktyorlar olub. Məsələn, Yaşar Nuri. Rəhmətlik bir tamaşada beş fərqli obrazı oynayıb. Beş fərqli yeriş, baxış, danışıq. Siyavuş Aslanı çox sevmişəm. Bugünə baxsaq, işlədiyim teatrda Şövqi Hüseynov, Elşən Rüstəmov, Naibə Allahverdiyeva kimi insanlarla səhnəyə çıxmaq çox xoşdur. Bir vaxtlar onlara uzaqdan baxardıq. Amma heç kim heç nəyi və heç kimi bütləşdirməməlidir. Yalnız bunun sayəsində istənilən səviyyəyə gəlib çatmaq olar.

**- Tamaşaçılarla ünsiyyətin olurmu?**

- Olanda olur, olmayanda olmur. Bir dəfə biri yaxınlaşdı. Dedi, serialda səni izləyirəm, anamın səndən elə zəhləsi gedir ki. Bu söz mənə çox xoş oldu. Deməli obrazı canlandıra bilmişəm.

**- Tamaşa vaxtı hansı məzəli hadisələr yaşamısan?**

- Bir dəfə Elşad Rəhimzadənin quruluş verdiyi "Qulliver" tamaşasını oynayırıq, mən də orda imperatoru oynayıram. Elşad əsəri Sovet təfəkküründən çıxarıb, maraqlı qurub. Tamaşanın ortasında bir yer var idi. İmperator əyyanları ilə "Basdalama damarımı" mahnısına oynayır. Mahnı qurtaran kimi bir qadın zaldan ayağa qalxdı və bərkdən dedi ki, bu nə tamaşadı oynayırsız? Bu nədir camaata göstərirsiz? Mən də imperatoru oynayıram axı. Özümü itirmədim, qalxdım ayağa, dedim, bu xanımı təcili surətdə sarayımdan bayıra atın! (gülür). Sonra nəzarətçilər gəlib qadını sakitləşdirmək istəsələr də qadın zalı tərk elədi.

**Söhbətləşdi:**
**Eminquey**

**Elan**

**19.04.2013-cü ildə "Sərxan-M" MMC-yə məxsus VÖEN №2302251271 dairəvi möhür itdiyi üçün etibarsız sayılır.**

Təsisçi və baş məsləhətçi:
**Aqil ABBAS**

Baş redaktor:
**İradə TUNCAY**

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 434-55-98**
**Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 1500**
**Sifariş: 66**
Çapa imzalanmışdır:
14.03.2022